## Müdafiə Nazirliyi təkzib edir

Erməni hərbçinin yaralanması barədə məlumat yalandır



**Noyabrın 29-u saat 17:50-də gu- ya ordumuzun bölmələri tərəfindən atəş açılması və nəticədə qarşı tərəfin hərbi qulluqçusunun yaralanması barədə Ermənistan müdafiə nazirliyinin yaydığı məlumat yalandır.**

Bu barədə "Şərq"ə Müdafiə Nazirliyindən bildirilib.

"Yayılan məlumatı qəti surətdə təkzib edirik", - məlumatda deyilir.




## Yens Stoltenberq: "Ukrayna NATO-ya üzv ola biləcək"

**"Hərbi əməliyyatlar başa çatdıqdan sonra Ukrayna NATO-ya üzv ola biləcək".**

"Report" "Ukraina Online"yə istinadən xəbər verir, bunu NATO-nun baş katibi Yens Stoltenberq bildirib. O əlavə edib ki, Rusiyanın hər hansı ölkənin Alyansa qoşulmasını qadağan etmək üçün veto hüququ yoxdur.


№ 218 (5739), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 30 noyabr 2022-ci il (çərşənbə)


## ABŞ Türkiyənin quru əməliyyatlarına səssiz qalacaq



### Vaşinqton Şimali Suriyada "kürd muxtariyyəti"nin yaradılmasının mümkün olmadığının fərqindədir

**Türkiyə artıq əvvəlki Türkiyə deyil". Bunu Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğan söyləyib. O bildirib ki, Türkiyə 2 terrorçu ilə, media manipulyasiyaları ilə istiqamətini dəyişəcək bir yer olmaqdan çoxdan çıxıb: "Ölkəmizi bu səviyyəyə gətirmək üçün son 20 ildə apardığımız demokratiya və inkişaf mübarizəsinin sizlər də şahidisiniz. "Türkiyə yüzilliyi" dediyimiz yeni bir dönəmə başlayırıq.**

Türkiyə artıq əvvəlki Türkiyə deyil". Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu da "Aspen Buxarest" Forumunda deyib ki, təhlükəsizlik anlayışı bölünməzdir: "Təhdid haradan gəlirsə gəlsin, ona kollektiv şəkildə cavab verilməlidir. Terror Madriddə keçirilən Sammitdə qəbul olunan yekun sənəddə də iki təhdiddən biri kimi qeyd olunub. Müttəfiqlər Türkiyənin yanında olmalı və unutmamalıdırlar ki, terrorun ən çox hədəf aldığı NATO müttəfiqi elə Türkiyədir".

(səh.5)



## Ermənistan və Azərbaycan arasında real proqres əldə olunub

Filip Riker: "Davamlı sülhü əldə etmək istəyən hər iki ölkə tərəfindən real və cəsarətli addımları müşahidə edirəm"

**Mən Bakıya səfər etməkdən və Birləşmiş Ştatların Azərbaycandakı səfirliyindən sizinlə danışmaqdan məmnunam.**

Azərbaycanın potensialı nəzərə çarpır. Hər dəfə buraya döndüyüm zaman mən iqtisadiyyatın, insanların dayanıqlığının və bütün Cənubi Qafqaz bölgəsi üçün imkanların artdığını müşahidə edirəm.

Bu barədə Azərbaycanda səfərdə olan ABŞ Dövlət Departamentinin Qafqaz danışıqları üzrə baş müşaviri Filip Riker videomüraciətində deyib.

(səh.3)

# Rus sülhməramlıları qırmızı xətti keçir

## Azərbaycan Rusiyaya ilk növbədə diplomatik addımlarla cavab verməlidir



**Rusiya sülhməramlı qüvvələri Azərbaycana qarşı açıq-aşkar təxribatçı mövqe sərgiləyirlər. Sülhməramlılar onlara Qarabağın yaşayış məntəqələrinin Azərbaycan toponimlərinə uyğun adlı siyahı və xəritə verilməsinə baxmayaraq, rəsmi press-relizlərdə Azərbaycana məxsus əraziləri qondarma erməni adları kimi təqdim edirlər.**

Azərbaycanın Müdafiə Nazirliyi ardıcıl iki dəfə Rusiya sülhməramlı kontingentinin komandanlığına müraciət edib. Bildirilib ki, sülhməramlı kontingentin rəsmi məlumatlarında yaşayış məntəqələrimizin adları uydurma erməni toponimləri ilə qeyd edilib. Nazirlık sülhməramlı kontingentin rəhbərliyini yaşayış məntəqələrimizin adlarını düzgün toponimlərlə ifadə etməyə çağırıb. Ekspertlərə görə, Rusiya tərəfi Azərbaycanı qıcıqlandırmaq və Qarabağda vəziyyəti gərginləşdirmək məqsədi ilə qəsdən belə addımlar atır.

(səh.3)

## Azərbaycan tərəfi Brüssel danışıqlarından imtina etməyib

XİN Mirzoyanın səsləndirdiyi iddialara münasibət bildirib



Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın noyabrın 28-də "Armenpress" xəbər agentliyinə müsahibəsi zamanı Azərbaycanla Ermənistan arasında danışıqların mahiyyətini, sülh müqaviləsinin hazırlanması, delimitasiya prosesi, mina təhdidi, habelə ərazi bütövlüyünün tanınması kimi məsələlər üzrə fikirləri yanlış məcraya yönəltmək və təhrif etmək cəhdi tamamilə əsassız və qəbuledilməzdir.

Bu barədə "Şərq"ə Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadə bildirib.

(səh.2)

# Güneydə inqilabın ayaq səsləri eşidilir

## Etibarsız qonşunun Ermənistanla qucaqlaşmasına cavab ağır olacaq



**Azərbaycanın beynəlxalq hüquq əsaslanan, yaxın qonşuluğa, tarixi əlaqələrə istinad edən münasibətinin, təmkinli davranışlarının qarşılığında İrandakı rejimin avantürist davranış sərgiləməsi müşahidə olunur.**

Cənub qonşumuz heç bir əndazəyə sığmayan tərzdə aqressiya nümayiş etdirir, Azərbaycana qarşı absurd iddialar və ittihamlar səsləndirir. Xüsusən son vaxtlar baş verən siyasi gərginlik fonunda İranın əsəbi davranışları açıq-aşkar müşahidə olunmaqdadır. İstər öz vətəndaşlarına, istərsə də qonşu dövlətlərə qarşı riyakarlığı ifşa edildikcə molla rejimi daha da aqressivləşir.

(səh.4)



## Qarabağ münaqişəsi dövründə itkin düşənlərin 80 faizi hərbçidir

**Dağlıq Qarabağ münaqişəsi dövründə itkin düşmüş şəxs kimi qeydə alınanların 80 faizi hərbçidir.**

"Report"un Qərb bürosunun məlumatına görə, bunu Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Bakı nümayəndəliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri İlahə Hüseynova deyib.

O söyləyib ki, Azərbaycan və Ermənistan arasında münaqişənin başladığı 1990-cı ildən ümumilikdə 4500 nəfər itkin düşmüş sayılır. "1990-cı ildən bəri ümumilikdə qeydə alınan bu şəxslərdən 3800 nəfəri Beynəlxalq Qızıl Xaç Komitəsinin Bakı və Bərdə ofisində qeydə alınıb. Bunlardan 80 faizi hərbçilərdir", - İ.Hüseynova bildirib.

## 2 nəfər vəfat edib

43 yeni yoluxma faktı qeydə alınıb



**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 43 yeni yoluxma faktı qeydə alınıb, 57 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan ""Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən 2 nəfəri vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 824 288 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 814 053 nəfər müalicə olunaraq sağalıb, 9 978 nəfər vəfat edib, aktiv xəstə sayı 257 nəfərdir.

*Ölkədə son sutka ərzində 2 235, hazırkı dövrədək isə 7 373 658 test aparılıb.*

## İmtahanın müddəti cəmi 15 dəqiqədir

Mopedçilər üçün sürücülük vəsiqəsi imtahanları sadələşdirilib



**"Mopedçilər üçün sürücülük vəsiqəsi imtahanlarının məzmunu sadələşdirilib".**

Bunu Milli Məclisin iclasında deputat Kamal Cəfərli deyib. Onun sözlərinə görə, Baş Dövlət Yol Polisi İdarəsində bu prosesin asan və şəffaf keçirilməsi üçün xüsusi komissiya yaradılıb:

"Hazırda Baş Dövlət Yol Polisi İdarəsi gün ərzində rahatlıqla 400 nəfərin imtahan prosesindən keçməsini təmin edə bilir. İmtahanın müddəti isə cəmi 15 dəqiqədir".

(səh.6)



## Siyasi partiyalar haqqında qanun mükəmməl deyil

Fazil Mustafa: "Sənəddə qeyd olunur ki, xalqın adından danışmaq olmaz, bu müddəa səhvdir"

(səh.3)



## "Rusiya heç vaxt düzəlməyəcək"

Cümşüd Nuriyev: "Nə qədər cinayətkar varsa, hamısı Xankəndidədir"

(səh.4)

# Azərbaycan ilə Türkmənistan arasında ticarət dövriyyəsi artıb

## Prezident Türkmənistan Baş nazirinin müavinini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 29-da Türkmənistanın Baş nazirinin ticarət kompleksi üzrə müavini Batır Atdayevin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Batır Atdayev Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun salamlarını və ehtiramını Prezident İlham Əliyevə çatdırdı. O qeyd etdi ki, Azərbaycan Prezidentinin bu ilin iyununda Aşqabadda Xəzəryanı Dövlətlərin Dövlət Başçılarının VI Zirvə Toplantısında iştirak etmək üçün Türkmənistana səfərinə ölkəsində böyük önəm verilir.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Sərdar Berdiməhəmmədova çatdırmağı xahiş etdi.

Görüşdə Azərbaycan-Türkmənistan ikitərəfli əlaqələrinin inkişafından məmnunluq bildirildi, ölkələrimiz arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiyanın bu gün Bakıda keçiriləcək iclasında müzakirə ediləcək məsələlər qeyd olundu, energetika, nəqliyyat, logistika, malların qarşılıqlı təchizatı məsələləri barəsində fikir mübadiləsi aparıldı.

Söhbət zamanı Azərbaycan ilə Türkmənistan arasında ticarət dövriyyəsinin artdığı qeyd edildi, qarşıdakı dövrdə bu dövriyyənin daha da genişlənməsi üçün birgə layihələrin həyata keçirilməsinin vacibliyi vurğulandı. Eyni zamanda, gəmiqayırma, gəmi təmiri və digər sənaye sahələrində əməkdaşlıq imkanları müzakirə edildi.



### Rusiya ilə Ukrayna arasında danışıqlar başlaya bilər

**Kiyev Moskvanın tələblərini müzakirə etmək üçün siyasi iradə nümayiş etdirərsə, Rusiya ilə Ukrayna arasında danışıqlar başlaya bilər.**

Bu barədə çərşənbə axşamı jurnalistlərə prezidentin mətbuat katibi Dmitri Peskov məlumat verib.

Rusiya liderinin mətbuat katibi Dmitri Peskov bildirib ki, Ukrayna ilə heç bir danışıqlar indi mümkün deyil, çünki Kiyev onları rədd edir: "Həqiqətən də, hazırda heç bir danışıqlar aparmaq mümkün deyil, çünki Ukrayna tərəfi onları qəti şəkildə inkar edir. Xüsusi hərbi əməliyyat isə davam edir".

### Uşaqları cinsi istismar edən şəxs valideynlik hüququndan məhrum ediləcək

**Valideynlər (onlardan biri) valideynlik hüquqlarından məhrum ediləcəyi hallar sərtləşdirilir.**

Bu, Milli Məclisin dünən keçirilən iclasında müzakirə edilən və parlamentin plenar iclasına tövsiyə edilən Ailə Məcəlləsinə təklif edilən dəyişiklikdə əksini tapıb.

Dəyişikliyə əsasən, valideynlər (onlardan biri) uşaqlara qarşı cinsi istismar və ya cinsi zorakılıqla bağlı cinayət törətdikdə valideynlik hüququndan məhrum ediləcək.

Qanun layihəsi müzakirələrdən sonra birinci oxunuşda qəbul edilib.

### Spikerdən deputata irad

"Jurnalistlər qonaq deyillər, onlar bizimlə bərabər səhərdən axşama qədər işləyirlər"

**"Çox sağ olun, Rüfət müəllim, siz qonaqları da salamladınız. Amma bu gün bizim qonaqlarımız yoxdur".**

Bunu Milli Məclisin spikeri Sahibə Qafarova parlamentin noyabrın 29-da keçirilən plenar iclasında çıxışı zamanı deyib.

Sədrin çıxışına cavab olaraq deputat Rüfət Quliyev yerindən jurnalistləri salamladığını qeyd edib.

Deputatın cavabına reaksiya verən spiker isə qeyd edib ki, jurnalistlər qonaq deyillər: "Jurnalistlər qonaq deyillər, onlar bizimlə bərabər səhərdən axşama qədər işləyirlər".

# Ərdoğan və Əsəd tezliklə görüşə bilər

## Türkiyə mətbuatı Ankarada Türkiyə və Suriya liderləri arasında birbaşa təmasların yaradılması imkanının müzakirə edildiyini yazıb



**Türkiyə və Suriyanın nümayəndələri iki ölkənin prezidentləri Rəcəb Tayyib Ərdoğan və Bəşər Əsəd arasında şəxsi görüş təşkil etmək üçün pərdəarxası diplomatiya həyata keçirirlər. Bu barədə "Hürriyet" qəzeti yazıb.**

Nəşr 2011-ci ildən bəri görüşməyən iki lider arasında danışıqların "yaxın gələcəkdə" baş tuta biləcəyini istisna etmir. Bundan əvvəl qəzet Ərdoğanla Əsədin görüşünün 2023-cü ilin iyununda Türkiyədə keçiriləcək prezident seçkilərindən əvvəl baş tuta biləcəyini iddia etmiş, görüş yeri kimi Rusiya göstərilmişdi.

Avqustun 5-də Ərdoğan və Rusiya Prezidenti Vladimir Putin arasında Soçidə keçirilən danışıqlardan sonra Türkiyə mətbuatı Ankarada Türkiyə və Suriya liderləri arasında birbaşa təmasların yaradılması imkanının müzakirə edildiyini yazıb. Bununla bağlı Türkiyə hakimiyyəti bəyan edib ki, belə danışıqlar hələlik planlaşdırılmayıb və Ankara ilə Dəməşq arasında əlaqələr yalnız xüsusi xidmət orqanları vasitəsilə həyata keçirilir.

Oktyabrın 6-da Avropa Siyasi Birliyinin Praqada keçirilən sammitindən sonra Ərdoğan bildirib ki, Suriya prezidenti ilə görüşdən indi danışmaq tezdir. Daha sonra o, belə bir görüşün "vaxtı gələndə" baş tutacağını bildirib. Noyabrın 27-də Ərdoğan Türkiyə ilə Suriya arasında münasibətlərin Misirdən nümunə götürərək yaxşılaşa biləcəyini deyib. İki ölkə prezidenti 2013-cü ildən bəri ilk dəfə olaraq noyabrın 19-da Qətərdə dünya çempionatının başlaması münasibətilə keçirilən mərasimdə görüşüb və yarım saatlıq danışıqlar aparıblar. Noyabrın 28-də Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu yaxın aylarda Misirə səfir təyinatının mümkünlüyünü açıqlayıb.

# Azərbaycan ABŞ ilə strateji tərəfdaşdır

Vaşinqton artıq postmüharibə dövründə həllini gözləyən məsələlərlə bağlı pozitiv mövqedən çıxış edir

**Pentaqonda Azərbaycan və ABŞ arasında hərbi əməkdaşlığın perspektivləri müzakirə olunub. Bu barədə Müdafiə Nazirliyindən "Şərq"ə məlumat verilib.**

Qeyd olunub ki, Amerika Birləşmiş Ştatlarında səfərdə olan müdafiə nazirinin birinci müavini, Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev ABŞ-ın Birləşmiş Qərargahlar Rəisləri Komitəsi rəisinin birinci müavini admiral Kristofer Qreydi ilə görüşüb.

Görüşdə Azərbaycan ilə ABŞ arasında hərbi əməkdaşlığın perspektivləri və regional təhlükəsizlik məsələləri müzakirə olunub.

**Görüşü şərh edən millət vəkili Elman Nəsirli "Şərq"ə açıqlamasında deyib ki,** olduğu üçün ABŞ ilə hərbi-texniki əməkdaşlığımız bir qədər məhdud xarakter daşıyırdı: "Xüsusilə də Birləşmiş Ştatların münaqişə dövründə Azərbaycana müasir silahlar satması qeyri-real məsələ idi. Bu gün Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuz 2 il əvvəl tarixi qələbəyə imza ataraq Azərbaycan ərazi bütövlüyünü bərpa etdi və Azərbaycanın yaratdığı yeni reallıqlar bütün dünya tərəfindən qəbul olunub. ABŞ da postmüharibə dövründə həllini gözləyən məsələlərlə bağlı pozitiv mövqedən çıxış edir. Amerika üçün Cənubi Qafqazda sabitlik olduqca vacib amillərdən biridir. Bu baxımdan rəsmi Vaşinqton Azərbaycanla hərbi və hərbi-texniki əməkdaşlıq məsələlərinə yenidən baxmağa başlayıb. Bu mənada Azərbaycan Ordusunun Baş Qərargah rəisinin ABŞ-dəki həmkarı ilə görüşü regionda sülh və təhlükəsizliyin möhkəmlənməsinə xidmət göstərir. Bizim məqsədimiz regionda uzunmüddətli sülhün bərqərar olmasıdır. Azərbaycan beynəlxalq aləmdə sülhsevər, demokratik prinsiplərin inkişafına xüsusi önəm verən, iri infrastruktur layihələrin reallaşdırılmasında zəngin təcrübəsi olan bir ölkə kimi tanınır. Sürətli iqtisadi inkişaf yoluna qədəm qoyan müstəqil Azərbaycan dünyanın inkişaf etmiş ölkələri ilə bir sıraya qoşulmaqdadır. Buna nail olmaq üçün Ermənistana belə əməkdaşlıq əli uzadıb. Ermənistan isə sözdə razılıq versə də, yeritdikləri siyasət tamam ziddiyyətlidir".



**hazırda Azərbaycanla hərtərəfli əməkdaşlığa maraqlı olan dövlətlərin sayı getdikcə artmaqdadır. Belə əlaqələr ölkəmizi dünya birliyinə daha da yaxından tanıdır, mövqelərimizi möhkəmləndirir:** "Azərbaycan-ABŞ münasibətlərinin yüksələn xətt üzrə inkişafı da bu baxımdan diqqəti daha çox cəlb edir.

Azərbaycanla Amerika Birləşmiş Ştatları strateji tərəfdaşdırlar. Bir sıra fundamental məsələlərdə hər iki dövlətin mövqeyi üst-üstə düşür. Xüsusilə də beynəlxalq təhlükəsizlik məsələlərində ABŞ ilə Azərbaycan dəfələrlə ortaq mövqedən çıxış ediblər. Bu iki dövlətin strateji müttəfiqliyinin getdikcə yaxşılaşması, əməkdaşlığın genişlənməsi və əlaqələrin möhkəmlənməsi bütövlükdə Cənubi Qafqazda sülhün, təhlükəsizliyin, qlobal enerji və kommunikasiya layihələrinin həyata keçirilməsi baxımından çox böyük əhəmiyyət kəsb edir".

Millət vəkilinin sözlərinə görə, ötən 30 il ərzində Azərbaycan torpaqları işğal altında

**ABŞ dövlət katibi Antoni Blinkenin cənab İlham Əliyevə telefon zənglərini xatırladan E.Nəsirli deyib ki, bu danışıq çərçivəsində regional təhlükəsizlik məsələləri müzakirə edilir:** "Regionun geosiyasi dinamikasının inkişaf etdiyi bir vaxtda Azərbaycanın bu prosesdə aparıcı rol oynamasını müşahidə edən ABŞ Azərbaycanla olan münasibətlərini dərinləşdirmək niyyətindədir. ABŞ Azərbaycanın regionda yaratdığı reallıqları, eyni zamanda, Azərbaycanın müstəqilliyini və suverenliyini dəstəkləyir. Bu, ABŞ-nin ölkəmizlə münasibətlərə verdiyi yüksək önəmdən və Azərbaycanın Cənubi Qafqazdakı aparıcı mövqeyindən, qarşıdan gələn illər və onilliklərdə ABŞ-nin Azərbaycanla münasibətləri daha da genişləndirmək niyyətində olmasından xəbər verir".

**Şəymən**

# Azərbaycan tərəfi Brüssel danışıqlarından imtina etməyib

## XİN Mirzoyanın səsləndirdiyi iddialara münasibət bildirib

"Ermənistanın fikirləri yanlış məcraya yönəltmək və təhrif etmək cəhdi tamamilə əsassız və qəbuledilməzdir"

**Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın noyabrın 28-də "Armenpress" xəbər agentliyinə müsahibəsi zamanı Azərbaycanla Ermənistan arasında danışıqların mahiyyətini, sülh müqaviləsinin hazırlanması, delimitasiya prosesi, mina təhdidi, habelə ərazi bütövlüyünün tanınması kimi məsələlər üzrə fikirləri yanlış məcraya yönəltmək və təhrif etmək cəhdi tamamilə əsassız və qəbuledilməzdir.**

*Bu barədə "Şərq"ə Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadə bildirib.*

A.Hacızadə deyib ki, Azərbaycan və Ermənistan liderləri arasında növbəti görüşdə iştirak üçün Ermənistan tərəfindən şərt irəli sürülməsi, belə bir görüşün yalnız Fransa Prezidentinin iştirakı ilə keçirilə biləcəyinin bir daha təsdiqlənməsi Ermənistan tərəfinin üzərinə götürdüyü öhdəliklərə sadiq olmadığını göstərir və liderlər arasında növbəti görüşün Praqada deyil, məhz avqustun 31-də eyni formatlı üçtərəfli görüşün Brüsseldə liderlər arasında razılaşdırıldığını unudub. Brüsseldə növbəti görüş barədə əldə edilmiş razılığa baxmayaraq, Azərbaycan tərəfinin xoş niyyətlə Praqada görüşə, o cümlədən Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişellə yanaşı, Fransa Prezidentinin iştirakına razılıq verməsindən təəssüf ki, növbəti mərhələdə sui-istifadə edilib, Fransa tərəfinin obyektiv və ədalətli vasitəçi olmadığını göstərib. Ermənistan tərəfindən fərqli olaraq, Azərbaycan tərəfi Brüsseldə əldə edilmiş razılığa uyğun olaraq liderlər arasında danışıqlardan imtina etməyib və danışıqların davam etdirilməsi öhdəliyinə sadiqdir.

"Delimitasiya prosesinin hansı əsasda aparılması barədə razılığa gəldikdə qeyd olunmalıdır ki, Ermənistanın xarici işlər nazirinin iddiasının əksinə, həm Praqa, həm də Soçi görüşləri üzrə bəyanatlarda delimitasiyanın BMT Nizamnaməsində və Alma-Ata Bəyannaməsində qeyd edildiyi kimi, ərazi bütövlüyünün və suverenliyin qarşılıqlı tanınması əsasında həyata keçirilməsi nəzərdə tutulub. Ümumiyyətlə, BMT Nizamnaməsinə və Alma-Ata Bəyannaməsinə istinad qeyd edilən prinsiplər kontekstində verilib və bu görüşlərdə delimitasiyanın hansı xəritə əsasında həyata keçirilməsi barədə hər hansı bir müddəa olmadığı Ermənistan tərəfinə yaxşı məlumdur. Delimitasiya prosesi isə bütün hüquqi əhəmiyyəti olan sənədlərin təhlili əsasında həyata keçirilməlidir", - deyə A.Hacızadə diqqətə çatdırıb.

Diqqətə çatdırılıb ki, bu ilin sentyabr ayında delimitasiya olunmamış sərhəddə Ermənistan tərəfinin mina basdırması və hərbi mövqelərimizə qarşı təxribat törətməsi nəticəsində baş vermiş toqquşma nəticəsində Azərbaycanın guya Ermənistan ərazilərini işğal etməsi iddiasının heç bir əsası yoxdur. Otuz ilə yaxın bir dövrdə Azərbaycan ərazilərini işğal altında saxlayan, ölkəmizin 8 kəndini hələ də işğal edən, qüvvələrini Azərbaycan ərazisindən tam çıxarmayan, hərbi təxribatlarını və mina təhdidlərini davam etdirən Ermənistanın Azərbaycanı delimitasiya edilməmiş sərhəddə hər hansı mövqe tutmaqda və bununla komissiyanın işinə maneçilik törətməkdə təqsirləndirməsi heç bir məntiqə sığmır. 2020-ci il Vətən müharibəsindən sonra ölkəmizin Ermənistanla sərhədlərin delimitasiya olunması təklifinə uzun müddət heç bir cavab verməyən tərəfin məhz Ermənistan olduğu da unudulmamalıdır.



Qeyd edilib ki, Ermənistan xarici işlər naziri müsahibədə ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü tanıdığı barədə suala müsbət cavab verməkdən belə çəkinib. Azərbaycan tərəfinin müharibədən sonra Ermənistana təklif etdiyi və uzun müddət Ermənistanın cavabsız qoyduğu dövlətlərarası münasibətlərin bərqərar olması və sülh müqaviləsi imzalanması üçün beş baza prinsiplərin əsasında qarşılıqlı şəkildə suverenlik və ərazi bütövlüyünün təsdiq olunduğu Ermənistan tərəfinə məlumdur. Azərbaycan ərazilərinin 30 il ərzində işğal olunmasına və hərbi əməliyyatlar zamanı bütün imkanlara baxmayaraq, Azərbaycanın Ermənistan ərazisinə hücum etmədiyi də sirr deyil. Bütün bunların müqabilində baş verən təxribatlarda Azərbaycanın təqsirləndirilməsi tamamilə əsassızdır.

Sülh müqaviləsinin hazırlanması ilə bağlı suala cavabında Ermənistan naziri bütün digər məsələlər kimi manipulyasiyaya yol verir. Yaxşı olardı ki, beynəlxalq ictimaiyyət arasında çaşqınlıq yaratmaq əvəzinə, Ermənistan naziri sülh müqaviləsinin hazırlanması barədə ilk təklifin kimdən gəldiyi, baza prinsiplərinin ilk olaraq kim tərəfindən verildiyi, sülh müqaviləsinin elementləri üzrə ilk layihənin Cenevrə görüşündə kim tərəfindən təqdim olunduğu, eləcə də hər bir layihəyə Azərbaycan və Ermənistanın hansı müddət ərzində rəy bildirdiyi məsələsinə aydınlıq gətirərdi və bununla daha dolğun mənzərə yaranardı.

"Ermənistan tərəfinin birtərəfli qaydada guya Azərbaycana bütün mina xəritələrini verdiyi və ən çox minalanmanın Azərbaycan tərəfindən həyata keçirildiyi barədə tamamilə əsassız iddialara gəldikdə qeyd edək ki, 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın imzalanmasından sonra, ilk 8 ay ərzində ümumiyyətlə mina xəritələrinin olmasını inkar edən Ermənistanın daha sonradan beynəlxalq təzyiq nəticəsində təqdim etdiyi kiçik qisim mina xəritələrinin etibarlılığının yalnız 25 faiz təşkil etdiyi məlumdur. Bununla yanaşı, son mina partlayışlarının təqribən 55 faizdən artıq hissəsinin Ermənistan tərəfindən təhvil verilən xəritələrdən kənar ərazilərdə baş verməsi və müharibədən sonra 268 nəfərin mina qurbanı olması bəllidir. Azərbaycan ərazilərini 30 il işğal altında saxlayan və keçmiş təmas boyu əraziləri tam olaraq minalayan Ermənistanın faktları təhrif edərək, guya Azərbaycanın mina təhdidinin səbəbkarı olduğunu iddia etməsi riyakarlığın son həddidir. Ermənistanda 2021-ci ildə istehsal olunmuş minaların Azərbaycan tərəfindən Ermənistanla sərhəd ərazilərdən çıxarılaraq nümayiş etdirilməsi iddiası isə ən azı minaların təmizlənməsi işinin delimitasiya olunmamış sərhəddə Ermənistanın hərbi mövqelərinin müşahidəsi altında həyata keçirilməsinin qeyri-mümkünlüyü nəzərə alınaraq, elementar məntiqə və hərbi biliklərə ziddir", - deyə XİN-in Mətbuat xidməti idarəsinin rəhbəri diqqətə çatdırıb.

Həmçinin qeyd edilib ki, Ermənistan xarici işlər naziri erməni silahlı qüvvələrinin Azərbaycan ərazisindən çıxarılması məsələsində də növbəti dəfə manipulyasiyalara yol verir. Bu məsələdə Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan və digər rəsmi şəxslərlə mövqelərinin uyğunlaşdırılmasını xarici işlər nazirinə tövsiyə edərdik. Armen Qriqoryan tərəfindən bildirildiyi kimi, erməni qüvvələrinin Azərbaycan ərazisindən bu ilin sentyabr ayında çıxarılması nəzərdə tutulsa da, bu, hələ baş verməyib. Azərbaycan ərazisindən hansı qüvvələrin çıxarılması barədə öhdəliyə gəldikdə isə bir daha xatırladırıq ki, 2020-ci il 10 noyabr Bəyanatının 4-cü bəndinə əsasən, məhz bütün erməni silahlı qüvvələrinin Azərbaycan ərazisindən çıxarılması nəzərdə tutulur və bu məsələdə manipulyasiyalar yolverilməzdir.

Üçtərəfli Bəyanatın müddəalarını yanlış şərh edərək, öz öhdəliklərindən boyun qaçırmaq istəyən Ermənistan xarici işlər nazirinə xatırladırıq ki, bu destruktiv fəaliyyət bölgədə sülhün bərpasına xidmət etməməklə yanaşı, ilk növbədə, Ermənistanın əleyhinədir.

# Rus sülhməramlıları qırmızı xətti keçir

Azərbaycan Rusiyaya ilk növbədə diplomatik addımlarla cavab verməlidir



"Rusiya Qarabağla bağlı 1988-ci il planlarını tətbiq etməyə çalışır. Buna qətiyyən imkan verməmək olmaz. Məsələ kökündən həll olunmalıdır və həlli yolu da hərbi müstəvidən keçir"

**Rusiya sülhməramlı qüvvələri Azərbaycana qarşı açıq-aşkar təxribatçı mövqe sərgiləyirlər. Sülhməramlılar onlara Qarabağın yaşayış məntəqələrinin Azərbaycan toponimlərinə uyğun adlı siyahı və xəritə verilməsinə baxmayaraq, rəsmi press-relizlərdə Azərbaycana məxsus əraziləri qondarma erməni adları kimi təqdim edirlər.**

Azərbaycanın Müdafiə Nazirliyi ardıcıl iki dəfə Rusiya sülhməramlı kontingentinin komandanlığına müraciət edib. Bildirilib ki, sülhməramlı kontingentin rəsmi məlumatlarında yaşayış məntəqələrimizin adları uydurma erməni toponimləri ilə qeyd edilib. Nazirlik sülhməramlı kontingentin rəhbərliyini yaşayış məntəqələrimizin adlarını düzgün toponimlərlə ifadə etməyə çağırıb. Ekspertlərə görə, Rusiya tərəfi Azərbaycanı qıcıqlandırmaq və Qarabağda vəziyyəti gərginləşdirmək məqsədi ilə qəsdən belə addımlar atır. Qarabağın dağlıq hissəsinin Azərbaycanın ərazi bütövlüyünə daxil olduğu BMT tərəfindən təsdiqlənib. Beynəlxalq səviyyəli parlament assambleyaları da həmin ərazilərin Azərbaycana məxsus olmasını rəsmən qəbul ediblər. Elə Rusiyanın özü də Qarabağın Azərbaycana məxsus olduğunu qəbul edir. Xatırladaq ki, bu məsələ ilə bağlı Milli Məclisin Regional məsələlər komitəsi Rusiya Dumasının Regional komitəsinə müraciət etməyi qərarlaşdırıb. Komitə sədri, deputat Siyavuş Novruzov deyib ki, Rusiya sülhməramlıları 2020-ci il noyabrın 10-dan imzalanmış üçtərəfli bəyanata hörmətsiz yanaşır". O bildirib ki, Milli Məclisin Regional komitəsi Rusiya Dövlət Dumasının Regional komitəsinə müraciət hazırlayıb: "Onsuz da ermənilər tərəfindən Qərbi Azərbaycanda minlərlə toponimimizin adı dəyişdirilib. Belə olan halda sentyabr ayından bu yana Rusiya sülhməramlılarının Azərbaycan toponimlərinin adını təhrif edərək, separatizmə dəstək verməsi düzgün deyil. Əgər sülhməramlılar funksiyalarını yerinə yetirə bilmirlərsə, fəaliyyətlərini dayandırsınlar. Bizə sülh yaradanlar lazımdır, separatçı deyil".

**Politoloq Əhəd Məmmədli "Şərq"ə bildirib ki, Rusiya tərəfi qərəzli hərəkətlərinə bəraət qazandırmağa çalışır. İddia edir ki, guya, onlar sovet xəritələri ilə işləyirlər. Analitikə görə, Moskvanın keçmişə, Sovet dövrünə qayıtmasına ehtiyac yoxdur:** "BMT tərəfindən tanınan Azərbaycan torpaqları eyniylə Rusiya tərəfindən də rəsmən tanınıb. Ona görə də toponimlər ermənilərin uydurma adları ilə deyil, olduğu kimi səslənməlidir. Əslində Rusiya həmin rayonların Azərbaycana aid olduğunu və əsl adlarını çox yaxşı bilir. Sadəcə, öz məqsəd və niyyətlərini ortaya qoyurlar. Azərbaycan Rusiyaya ilk növbədə diplomatik addımlarla cavab verməlidir. Bununla paralel rəsmi Bakı həm ruslara, həm də separatçılara öz əzələlərini də göstərməlidir. Heç kim bizim ərazilər hesabına öz məkrli oyunlarını qura bilməz, qurmamalıdır. Rusiya Qarabağla bağlı 1988-ci il planlarını tətbiq etməyə çalışır. Buna qətiyyən imkan verməmək olmaz. Məsələ kökündən həll olunmalıdır və həlli yolu da hərbi müstəvidən keçir. Rusiya sülhməramlılarının nəzarətində olan əraziləri tezliklə öz yurisdiksiyamıza qaytarmalıyıq".

**İsmayıl Qocayev**



# Təmaslar artıq üçüncü tərəflər vasitəsilə yox, birbaşa qurulur

Türkiyə-Ermənistan münasibətlərinin normallaşdırılması prosesi müsbət şəkildə davam edir

**Türkiyə ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesi müsbət şəkildə davam edir.**

**Trend-in məlumatına görə, bunu Türkiyə Prezidentinin mətbuat katibi İbrahim Kalın bu gün yerli telekanallardan birinə müsahibəsində bildirib.**

O, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Praqada Ermənistanın baş naziri Nikol Paşinyanla keçirdiyi görüşü önəmli adlandırıb.

"Türkiyə ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesi müsbət şəkildə davam edir.

Üçüncü ölkə vətəndaşlarının giriş-çıxışı, diplomatik pasportlarla səfərə icazə verilməsi yaxın zamanda reallaşdırılması ehtimal edilən addımlardır. Biz bütün Cənubi Qafqazda rifah və sülh üçün zəmin olmasını arzu edirik. Qarabağ məsələsi həll olundu və 30 ildir qurula bilməyən təmaslar qurulur. Təmaslar artıq üçüncü tərəflər vasitəsilə yox, birbaşa qurulur. Bu, çox vacibdir", - deyə İ.Kalın əlavə edib.

# Ermənistan və Azərbaycan arasında real proqres əldə olunub

Filip Riker: "Davamlı sülhü əldə etmək istəyən hər iki ölkə tərəfindən real və cəsarətli addımları müşahidə edirəm"



**Mən Bakıya səfər etməkdən və Birləşmiş Ştatların Azərbaycandakı səfirliyindən sizinlə danışmaqdan məmnunam.**

Azərbaycanın potensialı nəzərə çarpır. Hər dəfə buraya döndüyüm zaman mən iqtisadiyyatın, insanların dayanıqlığının və bütün Cənubi Qafqaz bölgəsi üçün imkanların artdığını müşahidə edirəm.

Bu barədə Azərbaycanda səfərdə olan ABŞ Dövlət Departamentinin Qafqaz danışıqları üzrə baş müşaviri Filip Riker videomüraciətində deyib.

Onun sözlərinə görə, ABŞ Dövlət katibi Entoni Blinken sülhün əldə olunması üçün imkana və Cənubi Qafqazın potensialına çox inanır: "O, coğrafiyanın vacib olduğunu anlayaraq məndən bölgəyə səfər etməyi xahiş etdi.

Mən indi Bakıdayam, buradan da Tbilisi və İrəvana səfər edəcəyəm. Bu bölgədə coğrafiya və tarix görüşür.

Biz bilirik ki, sülh prosesi asan deyil. Bilirəm ki, münaqişə hər iki tərəfdə illər boyu böyük çətinliklərə və əzaba səbəb olub.

Lakin inanıram ki, ümid də var. Dinc gələcək üçün olan bir ümid. Ümid edirəm ki, sülh danışıqları zamanı əldə edilən impuls saxlanıla biləcək və daha parlaq gələcəyin təminatı üçün tarixin yeni səhifəsi açıla bilər.

Hazırda gələcəyə baxan və davamlı sülhü əldə etmək istəyən hər iki ölkə tərəfindən real və cəsarətli addımları müşahidə edirəm.

Dövlət katibi Blinkenin qeyd etdiyi kimi, hər iki dövlət Cənubi Qafqazda daha firavan, dinc gələcəyi təmin etmək naminə çalışır.

Birləşmiş Ştatlar Ermənistan və Azərbaycan arasında birbaşa dialoqu dəstəkləyir və əldə olunan impulsun yeni ildə də saxlanılmasına çağırır.

Real proqres əldə olunub və sülh daha yaxşı və parlaq gələcək vəd edir.

Mən sülhün əldə olunması üçün nümayiş etdirilən zəruri cəsarəti və qətiyyəti alqışlayıram", - Riker vurğulayıb.

# Siyasi partiyalar haqqında qanun mükəmməl deyil

Fazil Mustafa: "Sənəddə qeyd olunur ki, xalqın adından danışmaq olmaz, bu müddəa səhvdir"

**Milli Məclisin dünənki iclasında "Siyasi partiyalar haqqında" yeni qanun layihəsi birinci oxunuşda müzakirəyə çıxarılıb. Layihə barədə Milli Məclis sədrinin müavini, İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fəzail İbrahimli məlumat verib.**



O, layihənin hazırlanmasında dünyanın qabaqcıl ölkələrinin təcrübəsinin öyrənildiyini, ölkənin siyasi sisteminin və milli xüsusiyyətlərinin, bununla yanaşı, Venesiya Komissiyasının siyasi partiyaların fəaliyyətinin tənzimlənməsi haqqında tövsiyələrinin nəzərə alındığını bildirib. Daha sonra yeni qanun layihəsi deputatların müzakirəsinə təqdim olunub.

**"Qanun layihəsində təklif olunan məhdudiyyətlər aydın şəkildə göstərilib"**

**Parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli deyib ki, "Siyasi partiyalar haqqında" yeni qanun layihəsi toplaşmaq və birləşmək azadlığına təminat verir.** Onun sözlərinə görə, Avropa İnsan Haqları Konvensiyası qeyd edir ki, siyasi partiyalarla birləşmək hüququ dövlətlər tərəfindən qorunur və demokratik cəmiyyət üçün zəruri olan məhdudiyyətlər də ola bilər: "Hazırlanmış qanun layihəsinin 3.2-ci maddəsi məhz həmin tələbi özündə tam ehtiva edir. Çünki qanun layihəsində təklif olunan bir sıra məhdudiyyətlər aydın şəkildə göstərilib və mütənasibdir. Üç komitə layihə üzərində işçi qaydada çalışsa da, ictimai müzakirələrdə komitə üzvü olmayan deputatlar da iştirak edib. Bizim parlamentin bir çox üzvləri bu layihənin müzakirəsində aktiv iştirak edib. Əminəm ki, siyasi sistemə töhfə verəcək qanun layihəsi birinci oxunuşda qəbul ediləcək".

**"Yeni qanun layihəsi çoxpartiyalı sistemin təşəkkül tapmasına kömək olacaq"**

**Deputat Ziyafət Əsgərov deyib ki, "Siyasi partiyalar haqqında" yeni qanun layihəsi cəmiyyətdə siyasi plüralizmin hüquqi əsaslarını daha da möhkəmləndirməklə yanaşı, çoxpartiyalı sistemin təşəkkül tapmasına da kömək olacaq:** "Təəssüf ki, bu gün siyasi partiyalardan danışanda bir çox hallarda çoxpartiyalı sistem yox, partiyaların çoxluğunu nəzərdə tuturuq. Əslində bu qanun layihəsinin əsas məqsədi vətəndaş, cəmiyyət və dövlət konfiqurasiyasında siyasi partiyanın dəqiq təyinatını müəyyənləşdirməkdir. Hazırda qüvvədə olan "Siyasi partiyalar haqqında" qanunda 1993-cü ildən bugünədək 70-dən çox dəyişiklik edilib. Lakin indiki yeni layihənin birinci oxunuşuna qədər 66 dəyişiklik olunub. Bu onun göstəricisidir ki, qanun layihəsinin müzakirəsi üçün ölkədə fəaliyyət göstərən siyasi partiya və ictimai birliklərin iştirakına tam şərait yaradılmışdı. Bütün demokratik ölkələrdə olduğu kimi Azərbaycanda da hüquq münasibətlərinin, bütövlükdə ictimai münasibətlərin dinamikası çox genişdir. Heç şübhəsiz ki, yeni qanun layihəsinin qəbul edilməsi cəmiyyətdə siyasi və hüquq mədəniyyətinin yeni mərhələsini formalaşdırmaqdır. Bu baxımdan qanunun icrası üçün bizdən, hüquq-mühafizə orqanlarından, eləcə də icra orqanlarından çox şey tələb edilir. Hüquqi mədəniyyət yüksəkdirsə, deməli, cəmiyyətdə hüququn aliliyi də çox olacaq".

**"Yeganə qanundur ki, hazırlıq müddətində bu qədər dəyişikliklər oldu"**

**Deputat Fazil Mustafa bildirib ki, ümumilikdə heç bir qanun mükəmməl deyil:** "Zamanın tələbinə uyğun olaraq, müəyyən dəyişikliklər olacaq. Qanunda müəyyən məhdudiyyətlər də var ki, onları qeyd etmək lazımdır. Qanunda qeyd olunur ki, xalqın adından danışmaq olmaz. Bu müddəa düzgün deyil. Məsələn, bu gün mən deyirəm ki, Fransa Senatının Azərbaycan haqqında çıxışlarını lənətləyirəm. İndi bunu deməyim? Xalqın adından çıxış etməyim? Bu müddəada uyğunsuzluqlar var".

**"Bəzi insanlar cibində 5-6 siyasi partiyanın vəsiqəsini daşıyırlar"**

**Deputat Elşən Musayev bildirib ki, bəzi insanlar var ki, cibində 5-6 siyasi partiyanın vəsiqəsini daşıyırlar: "Həmin insanlar harada hansı sərf edirsə, o vəsiqəni çıxardır.** Mən elə siyasi partiya rəhbəri tanıyıram ki, partiyanın möhürünü hara qoyubsa, xəbəri yoxdur. Elə partiya var ki, onun adındakı hərflərin sayı üzvlərin sayından çoxdur. Elə siyasi partiya rəhbəri var ki, heç onun həyat yoldaşı bilmir ki, o, hansı partiyanın sədridir. Reyestrin yaradılması məsələsi ona görə çox yaxşıdır. Siyasi partiyanı 5 nəfərlə yaratmaq istəyənlər var. Sənin əgər 5 nəfər üzvün varsa, get üstünə 5 nəfər də qoy, futbol komandası yarat. Siyasi partiya anlayışına ciddi yanaşmaq lazımdır".

**"Rəsulzadənin, Elçibəyin arzularını İlham Əliyev həyata keçirir"**

**Deputat Razi Nurullayev bildirib ki, müxalifətçiliyi də kişi kimi etmək lazımdır:** "İqtidarı, Prezidenti tənqid etmək, zəifləmək naminə Azərbaycanın düşmənləri ilə belə əməkdaşlıq edən, onların sözünü dəstəkləyən və onların televiziyalarında tənqidi fikirləri ilə görünən siyasətçilərin olmasına təəssüf edir. Bu gün İranın, Ermənistanın televiziyalarında onların çıxışlarından və tənqidlərindən istifadə olunursa, bu, onlar üçün utanc və faciədir. Parlamentdə olan müxalifəti də tənqid edirlər ki, siz necə müxalifətsiniz? Nə etməliyik? Yumruq davasına çıxmaq, qarışıqlıq salmaq, spikerin sözünü kəsmək, hər məsələyə etiraz etmək, zalı tərk etmək, səsi imkan verdikcə qışqırmaq, əl-qol ilə danışmaq bizlik deyil. Daha mədəni və təsirli yollar var, bunu da edirik. Son zamanlar məni də təhqir edirlər. Çünki Prezident İlham Əliyevin Azərbaycan naminə gözəl çıxışlarını dəstəkləyirəm. Biz müxalifət olaraq başımızın üzərində Rəsulzadənin, Elçibəyin portretini asmışıq, onların əsrlər boyu həyata keçməyən arzularını bu gün İlham Əliyev həyata keçirir, siz isə bunu qəbul etmək istəmirsiniz. Ədalətli, dövlətçi insanlar olsaq, gərək başımızın üstündə İlham Əliyevin şəklini asaq. Bütün partiyaların proqramında Qarabağ məsələsinin həlli var, İranda yaşayan soydaşlarımızın hüquqlarının müdafiəsi var, bütöv azərbaycançılıq var. O mövzular bir neçə partiyanın monopoliyası deyil. Təzadə bax ki, indi iqtidar partiyası bütöv Azərbaycana işarə vurur, İranda yaşayan azərbaycanlıların hüquqlarını müdafiə etməkdən ötrü tədbirlər görür, Azərbaycanın ən zəif vaxtlarında bütöv Azərbaycan deyənlər, Cənubi Azərbaycanda yaşayan həmvətənlərimizin hüquqlarını qoruyanlar ölkəmizin tarixdə görünməyən güclü vaxtında tərəflərini və ideallarını dəyişiblər. Bu, xalqımız üçün xəyanətə bərabər tutulacaq hərəkət, sizin üçün isə faciədir. Müxalifətçiliyi də gərək kişi kimi edəsən".

Müzakirələrdən sonra "Siyasi partiyalar haqqında" yeni qanun layihəsi birinci oxunuşda qəbul edilib. Məlumat üçün bildirək ki, qanun 6 fəsil və 30 maddədən ibarətdir. Layihəyə əsasən, dövlət qeydiyyatına alınması üçün siyasi partiyanın azı 5000 üzvü olmalıdır. Siyasi partiya Azərbaycan Respublikasının tam fəaliyyət qabiliyyəti olan azı 50 vətəndaşı (təsisçilər) tərəfindən təsis ediləcək.

**İsmayıl Qocayev**

# Antiterror əməliyyatları zərurətə çevrilib

Azərbaycan və Türkiyə güclərini birləşdirməlidir



**"Türkiyə Azərbaycanın əsas strateji tərəfdaşı, hərbi-siyasi və iqtisadi müttəfiqidir".**

Bunu "Şərq"ə siyasi şərhçi Turab Rzayev deyib. O vurğulayıb ki, Şuşa Bəyannaməsi və Türkiyə-Azərbaycan "İki dövlət bir millət" prinsipinə uyğun olaraq, hərbi-siyasi mənada, həmçinin vahid bir struktur halında fəaliyyət göstərir. Ölkə rəhbəri son çıxışında Türkiyə ordusunun yalnız olmadığı mesajını verib. Xüsusilə bölgədə geopolitik vəziyyətin kifayət qədər gərginləşdiyi bir məqamda daimi təmaslara ehtiyac var.

Çünki Türkiyə aktiv şəkildə Suriya və Şimali İraqda antiterror əməliyyatları həyata keçirir. Eyni zamanda Qarabağda da antiterror əməliyyatlarına başlama ehtimalı mövcuddur. Çünki Türkiyəyə qarşı bir neçə terror aktı törədilib. Azərbaycanda davamlı təxribatlar baş verir. Belə olan halda, hər iki tərəf öz güclərini birləşdirməli, eyni zamanda, koordinasiya şəklində hərəkət etməlidir. Həmçinin son zamanlar bəzi region dövlətlərinin, xüsusilə də, İranın Azərbaycana təhdidləri, Qarabağda törədilən provokasiyalar iki qardaş ölkənin bütün güclərini birləşdirməli olduğunu zəruri edir".

**Sücayət Mehti**



# Güneydə inqilabın ayaq səsləri eşidilir

## Etibarsız qonşunun Ermənistanla qucaqlaşmasına cavab ağır olacaq

**Azərbaycanın beynəlxalq hüquqa əsaslanan, yaxın qonşuluğa, tarixi əlaqələrə istinad edən münasibətinin, təmkinli davranışlarının qarşılığında İrandakı rejimin avantürist davranış sərgiləməsi müşahidə olunur. Cənub qonşumuz heç bir əndazəyə sığmayan tərzdə aqressiya nümayiş etdirir, Azərbaycana qarşı absurd iddialar və ittihamlar səsləndirir. Xüsusən son vaxtlar baş verən siyasi gərginlik fonunda İranın əsəbi davranışları açıq-aşkar müşahidə olunmaqdadır. İstər öz vətəndaşlarına, istərsə də qonşu dövlətlərə qarşı riyakarlığı ifşa edildikcə molla rejimi daha da aqressivləşir.**

Hakimiyyət bu aqressiyanın bir hissəsini ölkə üzrə rejimə qarşı etiraz edən aksiya iştirakçılarına, bir hissəsini isə Azərbaycan dövlətinə qarşı yağdırmağa başlayıb. Ermənistana hərbi, siyasi və iqtisadi dəstəyini əsirgəməyən İran paralel olaraq Azərbaycana qarşı da müxtəlif addımlar atır. Tehran artıq riyakar siyasətini ”müsəlman təəssübkeşliyi”, ”din və məzhəb qardaşlığı” pərdəsi ilə gizlədə bilmir. Əksinə, İranın din xadimlərinin Azərbaycana qarşı yönəlmiş təxribatlarda iştirak etməsi, xalqımızda daha çox ikrah hissi oyadır. İran əslində dini dəyərləri öz siyasətinə alət edən bir dövlət kimi özünü ifşa edir. Özünü din adı altında təbliğ edən bu ölkənin əslində dinimizin əleyhinə olan addımları səngimək bilmir. Həm mənəvi-əxlaqi, həm də tarixi dəyərləri tapdalayan rejim özünü qorumaq üçün çıxmadığı oyunlar qalmayıb. Artıq ədalətsizliyin, haqsızlığın məkanına çevrilən İran dünyanın dörd bir tərəfindən sıxışdırıldıqca, nifrətini, qəzəbi Azərbaycanın üzərinə tökür. Buna baxmayaraq, digər qonşusu olan Ermənistana pənah aparması onun əsl mahiyyətini və iç üzünü ortaya qoyur. İran artıq açıq şəkildə Azərbaycanın daxili işlərinə qarışır, ölkə daxilindəki sabitlik və asayişi pozmaq üçün din pərdəsi altında yaratdığı təxribatçı və casus qruplarını aktivləşdirir. Dövlət Təhlükəsizliyi Xidmətinin keçirdiyi son əməliyyatlar da bunu təsdiqlədi. İranın Azərbaycanda dini və milli düşmənçilik yaymaq, dini tolerantlığı pozaraq gərginlik yaratmaq niyyəti aydın görünür. İran təkcə xarici siyasətindəki uğursuzluqlarının deyil, daxilindəki böhranlarının da günahını Azərbaycanda axtarır. İranın yerli mediasının Azərbaycan əleyhinə təbliğatı artmaqdadır. Daxildəki etiraz dalğalarını uydurma ssenarilərlə Azərbaycanla əlaqələndirirlər. Azərbaycana hərbi müdaxilə üçün ictimai rəy formalaşdırmağa çalışırlar. Doğrudanmı mövcud İran rejimi əhalisinin onları dəstəklədiyini düşünür? Halbuki əhalinin 30 milyondan çoxu azərbaycanlıdır. İranın qeyri-konstruktiv siyasətinin mahiyyətini anlamaq üçün əvvəlcə bu ölkənin siyasi quruluşuna və daxildə baş verən hadisələrə nəzər yetirmək lazımdır. İranın daxili siyasətinə nəzər saldıqda burada siyasi qüvvələrin iki əsas qanadda cəmləşdiyini görərik. Bunlardan biri islahatçılardır ki, hakimiyyətdə təmsil olunduqda İranın dünya ilə inteqrasiyasını gücləndirmək, sanksiyaların aradan qaldırılması üçün konsensus əldə etmək istəyindədirlər. Digər qanad isə mühafizəkarlardan ibarətdir. Bu qanadın bariz nümayəndəsi İbrahim Rəisidir ki, o da bu gün İranın Prezidentidir. Bu siyasi düşərgənin nümayəndələri radikal islamçılardan ibarətdir. Təsadüfi deyil ki, bu qanadın nümayəndəsi hakimiyyətə gəldikdən sonra əxlaq polisinə böyük səlahiyyətlər verildi. Bunun da nəticəsində 22 yaşlı qız baş örtüyünü düzgün örtmədiyinə görə öldürüldü. Bunların xarici siyasət xətti isə dünya ilə inteqrasiya deyil, Yaxın Şərqi siyasi monopoliyaya almaq və öz dini ideologiyasını yaymaqdan ibarətdir. Bu xətti radikal qanadın hakimiyyətdə təmsil olunan nümayəndələri xüsusi xidmət orqanlarının vasitəsilə qonşu dövlətlər arasında yaymağa cəhd edirlər. Hazırda İran ciddi ictimai-siyasi böhranla üz-üzədir. Milli azlıqların hüquqsuzluğu, iqtisadi vəziyyətin ağır olması, siyasi ambisiyaların nəticəsində sanksiyalara məruz qalması və əhalinin sosial vəziyyətinin həddən artıq pisləşməsi insanların küçələrə çıxıb haqlarını tələb etməsi ilə nəticələnib. Ən başlıcası isə hakimiyyət bu etirazları nəzərə alıb vəziyyəti yaxşılaşdırmaq istəmir. Diqqəti problemlərdən yayındırıb cəmiyyətdə həmrəyliyə nail olmaq üçün İran gah qərbdəki, gah da şimaldakı qonşularına qarşı əsassız iddialar irəli sürür. Azərbaycan heç vaxt İran üçün təhlükə törətməyib və törətmir. Dəfələrlə ən yüksək siyasi səviyyədə bildirilib ki, Azərbaycanın İsrail və ya digər bir dövlətlə diplomatik münasibətləri qətiyyən İrana və ya üçüncü bir dövlətə qarşı yönəlməyib. Ölkəmiz xarici siyasətini milli maraqlarını nəzərə alaraq qurur və bu işdə kiminsə məsləhətinə ehtiyacı yoxdur.

**Millət vəkili Cavid Osmanov ”Şərq”ə deyib ki, İran Azərbaycana qarşı riyakar, qonşuluğa yaraşmayan siyasət yürüdür. Deputatın sözlərinə görə, bu, İranın etibarsız qonşu olduğunu bir daha sübut edir:** ”Azərbaycan beynəlxalq münasibətlər sistemində digər ölkələrlə qarşılıqlı əməkdaşlıq, dostluq, inkişaf və tərəqqi yolunu seçmiş bir ölkədir. Vacib istiqamətlərdən biri məhz region ölkələri ilə münasibətləri daha sıx əlaqədə qurmaqdır. Əslində İran 30 il müddətində Azərbaycanın ərazi bütövlüyünü tanıdığını desə də, digər tərəfdən təcavüzkar Ermənistana hər zaman dəstəyini nümayiş etdirib. Vətən müharibəsində əldə etdiyimiz tarixi Zəfərdən sonra İranın Azərbaycana qarşı qərəzli, riyakar və düşmənçilik siyasəti daha aşkar özünü büruzə verdi. Bu göstərir ki, müstəqil Azərbaycanın güclü-qüvvətli olmasını İranın gözü götürmür”.



“Müstəqil Azərbaycanın qüdrətli olmasını İranın gözü götürmür”

Parlament üzvü qeyd edib ki, Azərbaycan Qarabağ münaqişəsini tarixə qovuşdurandan sonra İran Zəngəzur dəhlizinin reallaşmasına açıq şəkildə maneə törətmək üçün əlindən gələni edir: ”Hətta Ermənistan sərhədinin pozulmasını özünün ”qırmızı xətt”i kimi, Ermənistanın təhlükəsizliyini öz təhlükəsizliyi kimi qələmə verir. Təəssüf ki, islam dəyərlərinə qarşı xain siyasət yürüdən İranın din xadimlərinin Azərbaycan əleyhinə yönəlmiş təxribatlarda iştirak etməsi islamın əxlaq kodeksinə zidd bir əməldir. Tarix göstərir ki, İranın molla hakimiyyəti islam dəyərlərinə, həmrəyliyinə, birliyinə ən böyük zərbə vuran hakimiyyətdir. İran açıq şəkildə təxribatlara əl atır, müharibədən sonra Azərbaycan sərhədinə qoşun yığır, ”hərbi təlim” adı ilə Azərbaycana hədə-qorxu gəlir. Yaxın tarixə baxsaq, əslində görərik ki, İranın riyakarlıq və yalançılıq xətti təkcə Azərbaycana qarşı münasibətdə deyil. Ümumilikdə, bu dövlətin siyasi davranış konsepsiyasında riyakarlıq və yalançılıq yer tutur. Onlar məqsədyönlü və açıq təxribatlara davam edərək özünü islam dövləti, müsəlman təəssübkeşi, Azərbaycanın mehriban qonşusu kimi təqdim etməyə çalışsa da, görürük ki, bunlar hamısı yalan ifadələrdir”. C.Osmanov vurğulayıb ki, Azərbaycan İranla münasibətlərə hər zaman xüsusi həssaslıqla yanaşır. Təəssüf ki, İran bunu anlamaq niyyətində deyil: ”İranda 40 milyona yaxın azərbaycanlının olması müstəqil Azərbaycan dövlətinin mədəni və mənəvi dəyərlər baxımından bu ölkə ilə bağlılığı mövcuddur. İran isə orada yaşayan azərbaycanlıların haqlarını tanımır, onları hər zaman təqib edir, ana dilində təhsil almaqdan məhrum edir, ana dilində KİV-dən istifadəsinə qadağa qoyur. Fəalları hətta edam edirlər. İrandan ölkəmizə qarşı ünvanlanan təxribat xarakterli bəyanatların müəllifləri qismində bu ölkənin ayrı-ayrı siyasətçilərinin, generallarının, ayətullahlarının çıxış etməsi İran təxribatlarının ölkəmizə qarşı miqyasının göstəricisidir. İndiki zamanda İran daxilində belə adamlar vasitəsilə Azərbaycana qarşı hərbi müdaxilə üçün ictimai rəy formalaşdırılır. Azərbaycanda dini qüvvələrin siyasiləşdirilməsi istiqamətində İran casusları tərəfindən iş aparılır. İran rejiminə xidmət edən terrorçuların zərərsizləşdirilməsi bir daha sübut edir ki, İran Azərbaycanda dini və milli düşmənçilik yaymaq, dini tolerantlığı pozaraq gərginlik yaratmaq niyyətindədir. İran öz potensialını və ikitərəfli münasibətlərin mahiyyətini adekvat dəyərləndirməlidir. Çünki Cənubi Qafqazın lider ölkəsi, Avropanın enerji təhlükəsizliyində başlıca rollardan birini oynayan, BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmiş, beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş hesab olunan, qüdrətli qalib Orduya malik olan və bütün dövrlərdə humanitar xarakterli, qlobal təşəbbüslərlə çıxış edən Azərbaycanla hədə və təhdid dilində danışmaq kimsəyə, ələlxüsus da İrana fayda verməz. Çünki İran nəzərə almalıdır ki, bu gün onların hərbi birləşmələrinin daxilində mütləq əksəriyyəti azərbaycanlılar təşkil edir və Azərbaycan dövlətinə hər zaman sadiqdirlər”.

**İsmayıl**

# Borçalıda İranın dini təsirləri artır

## Millət vəkilləri bu məsələ ilə yanaşı tıxaclardan, Qarabağda Vardanyan təhlükəsindən də danışıblar

**Dünən Milli Məclisin payız sessiyası çərçivəsində növbəti iclası keçirilib. İclasın gündəliyində 28 məsələ olub. Deputatlar gündəliklə bağlı müzakirələrdən əvvəl cari məsələlərdən danışıblar. Parlament üzvləri bəzi problemləri gündəmə gətirərək tənqidi fikirlər səsləndiriblər.**



### “Gürcüstanda müsəlman din xadimlərinin əksəriyyətini İran hazırlayır, tapşırıqla göndərir”

*Millət vəkili Fazil Mustafa deyib ki, hazırda Gürcüstanda azərbaycanlılar yaşayan ərazilərdə elə məktəblər var ki, yaşlı müəllimləri əvəz edəcək heç kim yoxdur. Deputatın sözlərinə görə, məktəb ilk növbədə ona görə azərbaycandilli məktəb adlanır ki, orada Azərbaycan dili və ədəbiyyatı fənni keçirilir:* ”Bunu azərbaycanlı müəllimlər keçirlər. Ümumiyyətlə, digər fənləri keçməyə də müəllim yoxdur. Gürcüstanda milli məktəblərimizdə kadr çatışmazlığı var. Problemi həll etmək üçün optimal variant Tbilisidə Gürcüstan və Azərbaycan hökumətinin dəstəyi ilə ortaq universitetin yaradılmasıdır. Gürcüstanda olan din xadimlərimizin əksəriyyətini ya İran öz dini müəssisələrində hazırlayır, ya da Borçalıya onlara müəyyən tapşırıqlar verərək qaytarır. Gürcüstanda azərbaycanlılar arasında cəhalət artmaqdadır. Biz indidən bu məsələyə reaksiya verməliyik. Gürcüstanda olan azərbaycanlıların dini təhsil alması üçün imkanlar da yaradılmalıdır”.

### “Dələduz Vardanyan ya Qarabağdan rədd ediləcək, ya da tutulacaq”

**Deputat Sahib Alıyev qeyd edib ki, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi ərazilərdə ermənilər təxribat törədir. Rusiya bunu Azərbaycanın sülhü pozması kimi qələmə verir:** ”Rusiya sülhməramlılarının Azərbaycan toponimlərini səhv yazması da qəbuledilməzdir. Hər kəs aydın görür ki, Vardanyan hansı tapşırıqla Azərbaycandadır. Vardanyana Ukraynada Samvelə tapşırılan tapşırıqdan veriblər. Dövlətimizin uyğun strukturları bunu görməzdən gələ bilməzlər. Dələduz Vardanyan ya Qarabağdan rədd ediləcək, ya da tutulub Azərbaycana gətiriləcək. Hiss olunur ki, Vardanyan da Qarabağda olmaqdan məmnun deyil. Qarabağdakı yaşayış məntəqələrinin adlarının haylar arzulayan kimi təqdim edilməsi heç nəyi dəyişmir, Qarabağ Azərbaycandır!”.

### Deputat tıxacların qarşısını almaq üçün bir alternativ təklif edib

Bakıda tıxac probleminin həlli üçün şagirdlər və müəllimlərə ictimai nəqliyyatın pulsuz olması təklif edilib. Deputat Naqif Həmzəyev bildirib ki, bir neçə gün əvvəl gənclər və idman naziri Fərid Qayıbov işə piyada gəldi, ictimai nəqliyyatda olan problemə diqqət çəkdi: ”O, Bakıdakı tıxacların qarşısını almaq üçün bir alternativ təklif etdi. Artıq tıxaclar günün bütün hissələrində var. Ümid edirəm ki, digər nazirliklər, məmurlar, dövlət qurumları da bu aksiyaya qoşulacaqlar. Ancaq etiraf edək ki, pik saatlarda nə metrodan, nə də ictimai nəqliyyatdan istifadə etmək mümkün olur. Mən şəxsən cəhd etdim. Ancaq əvvəllər saat 8-9-da çətin idisə, indi saat 10-da belə metroda yer tapmaq çox çətin oldu, 3-4 vaqon buraxmalı oldum. Məsələyə ciddi yanaşmaq lazımdır. Nəzərə almaq lazımdır ki, Bakıda insanların sayı artıb. Əvvəlki rejimlə metronun və ya ictimai nəqliyyatın işləməsi bu problemi həll edə bilməz”. Deputat qeyd edib ki, tıxacların səbəbi məktəblərdir: ”Məktəblərdə payız tətili zamanı Əhmədlidən şəhərin mərkəzinə 15 dəqiqəyə gəlməyin mümkünlüyünün şahidi olmuşam. Birbaşa olaraq tıxac məhz məktəb və məktəbdə təhsil alan şagirdlərimizlə bağlıdır. Çünki hər evdən bu uşaqları məktəbə gətirmək üçün bir avtomobil çıxır. Təklif edirəm ki, məktəblilər və müəllimlər üçün ən azı gündə iki dəfə ictimai nəqliyyat pulsuz olsun. İctimai nəqliyyatda da avtobusların sayı artırılmalıdır”.

### “Şəkidə su və yol problemi var...”

**Deputat Vüqar İskəndərov ”Azərsu” ASC-nin ünvanına ittihamlar səsləndirib. Deyib ki, ”Azərsu” ASC-nin sifarişi ilə 2012-ci ildə Şəki şəhərinin su-kanalizasiya sistemlərinin yenidən qurulmasına başlanılsa da, işlərin yalnız 66 faizi icra olunub:** ”On ildir davam edən bu layihə çərçivəsində Şəkidə 347 km uzunluğunda su şəbəkəsi və 266 km uzunluğunda kanalizasiya şəbəkəsi qurulmalı idi. Şəhərin bütün yolları və küçələri qazıldığından yarğanlar əmələ gəlib, keçilməz vəziyyətə düşüb. Hazırda Şəkidə ümumi uzunluğu 40 km olan yolun, şəhərin giriş-çıxışındakı 4 prospektin təcili təmirinə ehtiyac var. Bunu da yerli büdcə ilə etmək mümkün deyil, ona görə də məsələnin dövlət investisiya layihəsinə salınması üçün əhali adından xahiş edirəm və hökumətə müraciət edəcəyəm. Araşdırmalarımıza görə, Şəkidən daha kiçik rayonlara yolların bərpası ilə bağlı 1-2 dəfə çox pul ayrılıb. Əlimizdə rəqəmlər də var”.

### “Ruben Vardanyan sərvətini Xankəndidə yeni separatçılıq hərəkatına qoyur”

**Deputat Zahid Oruc bildirib ki, Ruben Vardanyanın bir vaxtlar Qarabağdan İrəvana yüksək vəzifələrə gedən sabiq nazirlərdən özünə kabinet formalaşdırması sərvətini Xankəndidə yeni separatizm hərəkatına qoyduğunu göstərir. Onun sözlərinə görə, R.Vardanyanın dünya ermənilərinə nümunəyə çevrilməsi təhlükəlidir:** ”Lakin bizi xaricdə yaşayan milli iş adamlarımızın azad torpaqlara humanitar yardım deyil, öz biznes maraqlarına sərmayə qoymaması da narahat etməlidir. Azərbaycanlı milyonçular da xarici vətəndaşlıqlarını Qarabağ üçün qurban verərdilərmi? Vardanyanla müqayisə və yarış naminə deyil, onlar azad edilmiş ərazilərə investisiya qoymaqla qayıdışa hazırdırlarmı. Hökm deyil ki, nazir vəzifəsinə gəlsinlər, bəlkə dövlət onlara yerli hakimiyyətdə vəzifə də tapşırar. Bəllidir ki, Qarabağ və azərbaycanlı yüzlərlə milyonçu var, lakin bölgə mənsubiyyətinə görə deyil, Vətən müharibəsində olduğu kimi, ”Böyük qayıdış”da da bir millət kimi hərəkət etmək daha önəmlidir”. Deputat xarici milli burjuaziyanı azad edilmiş ərazilərdə keçmiş məcburi köçkünlər üçün ev tikməyə çağırmadıqlarını deyib: ”Onların belə hüquqi öhdəliyi yoxdur. Ağdamın məşhur üzüm emalı zavodlarına, Zəngilanın, Qubadlının zəngin meyvə bağlarına investisiya qoymaq olar. Ona görə də dünya azərbaycanlıları 30 illik əhdlərini unutmamalıdırlar. Dövlət sahibkarları ”Böyük qayıdış” üçün əksər ödənişlərdən, vergi və rüsumlardan azad edir. Pullarını ölkədən çıxaranlara əlavə toxunulmazlıq və zəmanət lazımdırsa, onu da dövlətə açıq desinlər. Onsuz da müqəddəs torpaqlarda itki yoxdur, xalqa yatırılan kapital batmır. Bir özəl məktəbin, yaxud klinikanın tikilməsi ordunun tankı-topu qədər önəmlidir, çünki müharibənin iqtisadi yollarla davamıdır. Baxın, Rusiya zənginlərinin çoxmilyardlıq sərvətləri xarici banklarda müsadirə olunur, onları dövlətə qarşı qoymaq üçün güclü yerlərindən vururlar. Lakin bizim milyonçular Azərbaycanın siyasətinə görə təhlükə yaşamır”.

**İsmayıl Qocayev**

# Məktəblərdə vakansiya ola-ola insanları incidirlər

## Razi Nurullayev Elm və Təhsil Nazirliyini əsaslı tənqid edir



**Millət vəkili Razi Nurullayev Parlamentin dünənki iclasında Elm və Təhsil Nazirliyini sərt tənqid edib. Deputat bildirib ki, bu günə qədər Elm və Təhsil Nazirliyini tənqid etməyib. Gözləyib ki, bəlkə yanaşmalar dəyişər, qarşılıqlı hörmət olar:**

”Çalışırlar ki, hər şey daha yaxşı olsun, daha pis olur. Qurulan mexanizmi söküb yeni sistem qururlar, o isə köhnə sistemə 24 saat dua oxutdurur. Niyə həll etmirsiniz? Atama, qardaşıma, bacıma, qohum-əqrəbama görə xahiş etmirəm ki. İmişlidə neçə aylardır ki, yalnız texniki işlər üzrə 38 vakansiya var. Niyə ora uyğun insanları təyin etmirsiniz? Gözləyirsiniz ki, o məqsədlər üçün ayrılan pulu dövlətin büdcəsinə qaytarasınız? Bəs o insanların ah-naləsindən, göz yaşlarından qorxmursunuz? Haqqı deyim ki, nazirlikdə nazir ilə danışmaq problemi yoxdur. Amma neçə aylardır ki, zəng etmirəm, məktub göndərmirəm və etməyəcəyəm də. Əgər hər şey havadan asılı qalırsa, nə mənası? Ümumiyyətlə, bir sıra hallarda dövlət qurumlarının birinci şəxsləri ilə danışanda problem həll olmur, əksinə, daha çətinə düşür. Düzdür, il yarım öncə hörmətli nazirdən bir dəfə bir kimsəsiz gənc xanımla bağlı xahiş etmişəm və onu məktəbə işə götürüblər. Biz onun həyatını xilas etmişik, çünki evdə başsız üç xanım var idi. Onların taleyi necə olacaqdı, bir Allah bilir. Bu il imtahan verib İmişli üzrə ən yüksək balı da topladı. Xahiş etdiklərim, əsasən təhsili olan kimsəsiz gənc xanımlardır. Çünki ya onların həyatını iş verməklə xilas edəcəksən, ya da onlar zalım dünyanın burulğanına düşüb məhv olacaqlar. Axı vakansiya ola-ola aylarla, illərlə insanları incitməyə nə ad vermək olar?”.

**R.Nurullayev əlavə edib ki, Elm və Təhsil Nazirliyində yalnız nazir müavini Firudin Qurbanovla danışa bilir:** ”Digər müavinlər telefonu da qaldırmır, hörmətsizlik edirlər. Bir də Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri, hörmətli Mehriban Vəliyeva ilə danışmaq və haqlı məsələləri həll etmək olur. Hər ikisinə təşəkkür edirəm. Elm və Təhsil Nazirliyini anlamaqda çox çətinlik çəkirəm, çox. Deyim ki, elmimiz və təhsilimiz yüksək səviyyədədir, bu da yalan olar. Bəs bu qədər özünəgüvən, saymamazlıq, laqeydlik haradan və nədən qaynaqlanır? Bu suala cavab tapmaqda kömək istəyirəm”.

**Sədr Sahibə Qafarova isə bildirib ki, nazir Emin Əmrullayev çox açıq adamdır:** ”Əgər hansısa problemlər varsa, məktub yazıb cavab ala bilərsiniz. Məktub yazmayacaqsınız, cavab almayacaqsınız. Düşünürəm ki, Elm və Təhsil Nazirliyi haqqında belə danışmaq düzgün deyil”.

**İsmayıl**



## Avropa Şurasının nümayəndələri Mətbuat Şurasında olublar

**Bu gün Avropa Şurasının İnformasiya cəmiyyəti departamentinin proqramlar meneceri Şahin Rzayev və qurumun Bakı ofisinin layihələr rəhbəri Vüsal Behbudov Azərbaycan Mətbuat Şurasında olublar.**

Şuranın Beynəlxalq Əlaqələr Komissiyasının təşəbbüsü ilə keçirilmiş görüşdə qarşılıqlı əməkdaşlıq məsələləri müzakirə edilib.

MŞ sədri Rəşad Məcid bildirib ki, Avropa Şurası Azərbaycan mediası ilə, o cümlədən, rəhbərlik etdiyi qurumla hər zaman effektiv çalışıb. Bu fəaliyyətin həm jurnalistika, həm də cəmiyyət üçün konkret faydaları var. R.Məcid ötən illər ərzində formalaşmış bazaya görə mövcud istiqamətdəki əməkdaşlığın gələcəkdə də davamlı olacağına inandığını deyib.

Avropa Şurasının nümayəndələri Ş.Rzayev və V.Behbudov çıxışlarında təmsil olunduqları qurumla Mətbuat Şurasının indiyədək mövcud olmuş birgə fəaliyyət sahələrindən söz açıblar. Bildirilib ki, hazırda AŞ "Media peşəkarlığı və informasiya azadlığı" layihəsinə start verib və layihəyə V.Behbudov rəhbərlik edir. Bu təşəbbüs çərçivəsində diqqət yetiriləcək məqamlar isə əsasən hərbi jurnalistika, media qanunvericiliyi, media savadlılığı, dezinformasiyalar və digər məsələlər olacaqdır.

MŞ-nin Beynəlxalq Əlaqələr Komissiyasının sədri Müşfiq Ələsgərlinin, komissiya üzvü Yeganə Hacıyevanın çıxışlarında müzakirə edilən mövzunun, eləcə də perspektiv əməkdaşlığın müxtəlif istiqamətləri barədə fikirlər səsləndirilib, təkliflər irəli sürülüb.



# ABŞ Türkiyənin quru əməliyyatlarına səssiz qalacaq

## Vaşinqton Şimali Suriyada "kürd muxtariyyəti"nin yaradılmasının mümkün olmadığının fərqindədir

**"Türkiyə artıq əvvəlki Türkiyə deyil". Bunu Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğan söyləyib. O bildirib ki, Türkiyə 2 terrorçu ilə, media manipulyasiyaları ilə istiqamətini dəyişəcək bir yer olmaqdan çoxdan çıxıb: "Ölkəmizi bu səviyyəyə gətirmək üçün son 20 ildə apardığımız demokratiya və inkişaf mübarizəsinin sizlər də şahidisiniz. "Türkiyə yüzilliyi" dediyimiz yeni bir dönəmə başlayırıq.**

Türkiyə artıq əvvəlki Türkiyə deyil". Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu da "Aspen Buxarest" Forumunda deyib ki, təhlükəsizlik anlayışı bölünməzdir: "Təhdid haradan gəlirsə gəlsin, ona kollektiv şəkildə cavab verilməlidir. Terror Madriddə keçirilən Sammitdə qəbul olunan yekun sənəddə də iki təhdiddən biri kimi qeyd olunub. Müttəfiqlər Türkiyənin yanında olmalı və unutmamalıdırlar ki, terrorun ən çox hədəf aldığı NATO müttəfiqi elə Türkiyədir". Bu arada məlum olub ki, YPG və PYD Rusiya hakimiyyətindən ölkənin şimal-şərqində hərəkətlərin koordinasiyası ilə bağlı rəsmi Dəməşqlə razılığın əldə olunmasında vasitəçilik etməsini xahiş edib. Terrorçu Aram Hana Rusiya nümayəndələri ilə görüşdən danışıb. Onun sözlərinə görə, həmin görüşdə ruslar Türkiyənin şərtlərini təqdim ediblər, alyans bunu rədd edib. Məlumat üçün bildirək ki, noyabrın 20-də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Suriya və İraqın şimalında terror təşkilatı olan PKK-ya qarşı hərbi əməliyyata başlamaq barədə göstəriş verib. 10 günlük hərbi əməliyyatlarda yüzlərlə terrorçu zərərsizləşdirilib. Türkiyənin yaxın günlərdə quru əməliyyatlarına başlayacağı da deyilir. Quru əməliyyatlarının ilk hədəfinin Ayn əl-Ərəb, Münbiç və Tel-Rıfat olacağı gözlənilir. Bu barədə "Milliyyət" yazıb.

Bildirilib ki, ABŞ və Rusiya PKK/YPG terror təşkilatına sərhəd xəttindən 30 kilometr məsafədə geri çəkilməsi üçün təzyiqləri artırıb. Qeyd edilib ki, bu, Türkiyənin tələblərinin yerinə yetirilməsi ilə bağlıdır. ABŞ-nin tələblərinə görə, terror təşkilatları 30 kilometr geri çəkilməli və bundan sonra əraziyə ABŞ hərbçiləri yerləşdirilməlidir: "Ankara bu plana müsbət yanaşmır. ABŞ-nin ərazidə hərbi cəhətdən güclənməsi davam edir. Son 1 ayda ABŞ bölgədə 6 dəfə hərbi təminat həyata keçirib". Qəzet yazıb ki, xüsusilə Tel-Rıfat strateji əhəmiyyətə malik ərazidir. Ona görə də ilkin hədəf kimi nəzərdə tutulub. İddialara görə, məsələ ilə bağlı ərazidəki Rusiyanın hərbi nümayəndələri ilə məsləhətləşmələr aparılır. Ekspertlərin fikrincə, antiterror əməliyyatlarının davam etməsi qardaş ölkə üçün bir neçə cəhətdən əhəmiyyətlidir. Birincisi, Türkiyə bu yolla təhlükəsizlik zolağını təmin etmiş olacaq. İkincisi, Rusiya və ABŞ-yə öz sözünü deyəcək. Göstəriləcək ki, Türkiyə həmin dövlətlər olmadan da öz maraqlarını təmin edə bilir. Üçüncüsü, İstanbulun Taksim meydanında törədilmiş terror aktının qisası alınacaq.

**Politoloq Məhəmməd Əsədullazadə "Şərq"ə deyib ki, Türkiyənin Suriyanın şimalında PKK/YPG terror təşkilatına qarşı planlaşdırdığı antiterror əməliyyatı seçki öncəsi Ərdoğanın reytinqinə müsbət təsir edəcək:** "Həmçinin Türkiyə Suriyanın şimalında "kürd muxtariyyəti"nin yaradılmasının qarşısını almaqla bir növ Rusiyanın bu regionda aktivliyinin qarşısını alır. ABŞ da Türkiyənin bu əməliyyatına səssiz qalır. Vaşinqton Şimali Suriyada "kürd muxtariyyəti"nin yaradılmasının mümkün olmadığının fərqindədir. Ona görə də Türkiyə ilə ciddi qarşıdurmadan çəkinir. Şimali Suriyada nə ABŞ, nə də Rusiyanın planları baş tutur. Bu həbri əməliyyat Türkiyənin regional gücünün artmasına və Suriya ilə əlaqələrin normallaşmasına töhfə verəcək. Çünki bu əməliyyat Suriyanın da ərazi bütövlüyünün qorunmasına kömək edəcək. Artıq demək olar ki, Türkiyə rəhbərliyi Bəşər Əsədlə dialoq qurub. Bu əməliyyat rəsmi Dəməşqlə əlaqələndirilib. Əməliyyatla Suriyada kürd terror təşkilatlarının separatizminə son verilir".

**İsmayıl Qocayev**

# "Biz ikiyə bölünmüş bir xalqıq"

## Qüdrət Həsənquliyev: "Siyasi proseslər, cəmiyyətimizin inkişafı bizim yeni konstitusiya qəbul etməyimizi zərurətə çevirir"



**"Bütün dünya bilməlidir ki, Azərbaycan 200 il əvvəl ikiyə bölünüb".**

**Bu fikirləri deputat Qüdrət Həsənquliyev Milli Məclisin plenar iclasında çıxışı zamanı deyib. Millət vəkili qeyd edib ki, bu günlərdə Azərbaycan Prezidenti İranın Azərbaycana qarşı düşmənçilik siyasətini pislədi.** Bəyan etdi ki, biz cənubda yaşayan soydaşlarımızın hüquqlarını qoruyacağıq: "Bundan sonra İranın Azərbaycandakı səfiri İranın bayrağının üzərinə Prezidentin dəmir yumruğunu qoyaraq sosial şəbəkədə yaydı. Bu nə deməkdir? Səfir şovinist, fars-molla rejiminin adi hüquqlardan məhrum etdiyi cənubi azərbaycanlıdır. O, işarələrlə deyir ki, Ermənistandan sonra Prezidentin bir yumruğu da, bizi heç sayan, kölə etmiş, milli mənliyimizə həqarət edən fars-molla rejiminin başına dəyməlidir".

**Millət vəkili daha sonra əlavə edib ki, ABŞ-nin analitik mərkəzləri İrandakı vəziyyəti təhlil ediblər və İranın İnqilab Keşikçiləri Korpusu bir videoçarx hazırlayıb:** "Həmin videoçarxda onlar deyirlər ki, biz birinci Bakını, sonra isə Yerusəlimi azad edəcəyik. Vaxtilə də İran-İraq müharibəsində deyirdilər ki, əvvəl Kərbəlanı, sonra isə Yerusəlimi azad edəcəyik. Əslində onlar bununla İran xalqının diqqətini sosial problemlərdən yayındırmaq istəyirlər. Həmçinin farsları rejim ətrafında birləşdirməyə çalışırlar ki, baxın, əgər siz öz hüquqlarınız ətrafında mübarizə aparsanız, biz sizə demokratiya versək, hüquqlar tanısaq, o zaman bunu azərbaycanlılar üçün də etməliyik. O zaman da İranın bütövlüyünə təhlükə yaradacağıq. Ona görə də siz gərək dözəsiniz, öz hüquqlarınız ətrafında müzakirə aparmayasanız".

**Q.Həsənquliyev vurğulayıb ki, Azərbaycanda dövlət quruculuğu istiqamətində atılan addımlar, siyasi proseslər, cəmiyyətimizin inkişafı bizim yeni konstitusiya qəbul etməyimizi zərurətə çevirir:** "Hesab edirəm ki, yeni konstitusiyada ilk dəyişəcəyimiz məsələ Azərbaycan dövlətinin adının dəyişdirilməsi olmalıdır. Biz Bütöv Azərbaycanın cəmi 20 faizini təşkil edirik. Ona görə də bizim Azərbaycan adına iddia etməyə haqqımız yoxdur. Ölkəmizin adı Şimali Azərbaycan olmalıdır. Necə ki bölünmüş başqa xalqlar, məsələn, Cənubi və Şimali Koreya var. Bütün dünya bilməlidir ki, Azərbaycan 200 il əvvəl iki imperiya tərəfindən ikiyə bölünüb. Yəni biz ikiyə bölünmüş bir xalqıq. Düşünürəm ki, bu həm də cənubi azərbaycanlılar üçün bir stimul olar. Buna görə də mən bu məsələni bütün ictimaiyyətin, xalqımızın, dövlət rəsmilərinin diqqətinə çatdırmağı zəruru hesab etdim".

**İsmayıl**

# İmza atanlar yaxşıca fikirləşməlidir

## Bundan sonra "beh" müqaviləsi elektron qaydada tərtib olunacaq



Ramin Osmanlının sözlərinə görə, "beh" müqaviləsinin rəsmiləşdirilməsi ilə prosedurlar asanlaşacaq

**Daşınmaz əmlakın dövlət reyestri obyektlərinə dair sərəncam verilməsi haqqında müqavilələrin notariat qaydasında təsdiqlənməsi proseduru dəyişir.**

**Bu barədə məsələ Milli Məclisin dünən keçirilən iclasında müzakirəyə çıxarılan Mülki Məcəlləyə təklif olunan dəyişiklikdə əksini tapıb.**

Dəyişikliyə əsasən, daşınmaz əmlak üzərində sərəncam verilməsinə dair notariat qaydasında təsdiq edilmiş müqavilənin informasiya sistemləri vasitəsilə real vaxt rejimində Elektron Hökumət İnformasiya Sistemi üzərindən ötürülmüş elektron nüsxəsi əsasında müvafiq hüquqlar daşınmaz əmlakın dövlət reyestrində dövlət qeydiyyatına alınacaq. Belə müqavilə ondan irəli gələn mülkiyyət və digər əşya hüquqlarının daşınmaz əmlakın dövlət reyestrində qeydiyyatının aparılması üçün ərizə hesab olunacaq. Həmçinin layihəyə əsasən, beh haqqında razılaşma daşınmaz əmlaka sərəncam verilməsi barədə müqavilənin bağlanması ilə bağlı olduqda, notariat qaydasında təsdiq edilməlidir. Daşınmaz əmlaka sərəncam verilməsi barədə müqavilənin bağlanması ilə bağlı beh haqqında razılaşmanın notariat qaydasında təsdiq edilməsi zamanı behi alana münasibətdə Mülki Məcəllənin 225.6-cı maddəsində nəzərdə tutulmuş qaydalar tətbiq ediləcək.

Behin notariat qaydada təsdiqlənməsini şərh edən ekspertlərin fikrincə, "beh" müqaviləsi elektron qaydada tərtib olunaraq daşınmaz əmlakın reyestr xidmətində əksini tapmış olacaq. Əvvəllər isə beh notarial qaydada, yəni sənəd üzərində olurdu, amma daşınmaz əmlakın reyestrində bu sənəd əksini tapmırdı.

Dəyişikliklərlə reyestrda mənzil üçün behin verildiyi və bunun üçün ər-arvadın razılıqlarının olduğu görüləcək. Belə olan halda sonrakı prosesdə sənədlərin hazırlanması üçün baza da yaradılmış olacaq.

**Əmlak məsələləri üzrə ekspert Ramin Osmanlının sözlərinə görə, "beh" müqaviləsinin rəsmiləşdirilməsi ilə prosedurlar asanlaşacaq və kimsə behi verib, sonradan geri almayacaq və beh verən tərəf bu müqaviləyə imza atmazdan əvvəl daha çox götür-qoy edəcək.**

Çünki beh verən tərəf bu öhdəliyi pozacağı halda qarşı tərəfə əlavə vəsait ödəməli olacaq. Uzun illərdir ki, daşınmaz əmlakın qeydiyyatı ilə bağlı Azərbaycanda müəyyən addımlar atılır: "Düşünürəm ki, bu dəyişikliklər prosesin bir qədər də asanlaşmasına kömək edəcək. Beh müqaviləsinin bağlanmasını təsdiq etmək və icrasını təmin etmək məqsədilə razılığa gələn tərəflərdən birinin müqavilə üzrə digər tərəfə verəcəyi ödənişlər hesabına verdiyi pul məbləğidir. Behin məbləğindən asılı olmayaraq beh haqqında razılaşma yazılı formada bağlanmalıdır".

**Şəymən**

**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə ABŞ Dövlət Departamentinin Qafqaz danışıqları üzrə baş müşaviri Filip Riker arasında görüş keçirilib. Görüş zamanı, Azərbaycan-Ermənistan münasibətlərinin normallaşma prosesi, Vaşinqton görüşü də daxil sülh müqaviləsinin elementləri üzrə aparılan ikitərəfli danışıqlar və bundan irəli gələn məsələlər, kommunikasiyaların açılması və delimitasiya prosesi üzrə cari vəziyyət müzakirə olunub.**



# "Rusiya heç vaxt düzəlməyəcək"

## Cümşüd Nuriyev: "Nə qədər cinayətkar varsa, hamısı Xankəndidədir"

Ceyhun Bayramov üçtərəfli bəyanat çərçivəsində Ermənistanın hələ də öhdəliklərini yerinə yetirmədiyini, qüvvələrini Azərbaycan ərazilərindən tam çıxarmadığını, mina təhdidlərini davam etdirdiyini, öhdəliklərə zidd olaraq Laçın yolundan hərbi məqsədlər üçün istifadə olunduğunu diqqətə çatdırıb. O, qeyd edilən destruktiv addımların qarşısının alınmasının vacib olduğunu vurğulayıb. Nazir, eyni zamanda, Qarabağda yaşayan erməni sakinlərin reinteqrasiyası məsələsi üzrə ölkəmizin baxışları barədə qarşı tərəfə məlumat verib.

Filip Riker ABŞ tərəfinin normallaşma prosesinə bütün vasitələrlə dəstək verməyə hazır olduğunu bildirib. O, sülh müqaviləsinin elementləri üzrə aparılan danışıqların əhəmiyyət daşıdığını, bölgədə sülh və əmin-amanlığın təmin edilməsinin zəruri olduğunu diqqətə çatdırıb. Tərəflər həmçinin ikitərəfli əməkdaşlıq gündəliyinin müxtəlif aspektləri və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

**Siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev "Şərq"ə deyib ki, ABŞ hökuməti Ermənistan rəhbərliyinə etimad göstərməkdə yanıldığını anlamağa başlayıb. Professorun sözlərinə görə, Paşinyanın Amerika ilə yanaşı, Fransa və Rusiyaya da xidmət göstərməsi Ağ Evi hiddətləndirir və narazı salır:** "Ermənistan İranla bağlı məsələdə də Vaşinqtonu qəzəbləndirir. Paşinyan ABŞ-nin illərdir sanksiya tətbiq etdiyi bir ölkəni - İranı israrla Amerika ilə eyni müstəviyə çəkməyə çalışır. Bu da Ağ Evi çətin vəziyyətdə qoyur. O baxımdan Vaşinqtonun Cənubi Qafqaz siyasətində redaktələri müşahidə edirik. Müdafiə Nazirliyinin Baş Qərargah rəisi Kərim Vəliyev də ABŞ-də səfərdə olarkən Ağ Ev rəsmiləri Azərbaycanı strateji tərəfdaş olaraq təqdim etdilər. Hazırda Qafqaz uğrunda Qərblə Rusiyanın kəskin siyasi mübarizəsi gedir. Vaşinqton bölgədə Azərbaycanın önəmini çox gözəl anlayır və yeni dünya düzənində rəsmi Bakının yerini daha yüksəkdə görür. Azərbaycanın geostrateji mövqeyi, apardığımız müstəqil siyasət, dövlət başçısının düşünülmüş addımları, uzaqgörən siyasəti, mühüm aktorlardan birinə çevrilməsi ABŞ-nin nəzərindən yayına bilməz. Bütün hallarda Amerika Cənubi Qafqazda öz siyasətini həyata keçirmək istəyir. Bu, indiki məqamda Azərbaycana da sərf edir".

### "Ona görə də alternativ olaraq ABŞ-nin Cənubi Qafqaz siyasətindən yararlanmalıyıq"

**C.Nuriyev vurğulayıb ki, bölgədə Azərbaycana qarşı törədilən təxribatların arxasında Rusiya dayanır:** "Məğlub və zəif Ermənistanın güclü və qalib Azərbaycanla yenidən müharibəyə başlaması ermənilər üçün fəlakət olar. Bunu ermənilər özləri də etiraf edirlər və növbəti savaşın əleyhinə olduğunu söyləyirlər. Amma Ermənistanı həm Rusiya, həm də Ermənistan qızışdırır. Elə Xankəndi və ətraf bölgəyə yerləşdirilmiş rus ordusu da işğalçılıq və təxribat siyasətinə başlayıb. ABŞ baş verənləri izləyir və Rusiyanın imperiya siyasətinin kifayət qədər təhlükəli olduğunu diqqətə çatdırır. Rusiya üçtərəfli sazişə imza atmaqla üzərinə götürdüyü öhdəliklərin əksəriyyətini icra etməyib. İki il keçməsinə rəğmən, hələ də qanunsuz erməni silahlıları bizim torpaqlarımızdadır. Moskva nəinki razılaşmalara əməl edir, üstəlik, Brüssel anlaşmalarının da reallaşmasına imkan vermir, İrəvanı təxribata çəkir. Vardanyanı Xankəndiyə göndərən Rusiya Qarabağda növbəti qaynar nöqtə düzəltməyə çalışır. Yenə də torpaqlarımıza qanunsuz səfərlər reallaşır. Erməni separatçılarına silah-sursat və texnika daşınır, müxtəlif mallarla təmin olunurlar. Bütün bunların hamısı Rusiyanın nəzarətində olan Laçın dəhlizi vasitəsi ilə həyata keçirilir. Azərbaycan tərəfi mütləq Laçın dəhlizində öz nəzarət postunu qurmalıdır. Həm Gömrük Komitəsinin məntəqəsi olmalıdır, həm də bütün yol Ordumuzun nəzarətinə verilməlidir. Nə qədər cinayətkar varsa, hamısı Xankəndidədir. Hətta PKK və "Asala" terror təşkilatlarının üzvləri də ermənilərin başına toplaşıblar. Kim nə deyir-desin, Rusiya heç vaxt düzəlməyəcək, bu ölkədən səmimiyyət gözləməyə dəyməz. Ona görə də alternativ olaraq ABŞ-nin Cənubi Qafqaz siyasətindən yararlanmalıyıq. Artıq bıçaq sümüyə dirənib".

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## İşğaldan azad olunmuş ərazilərə “Böyük Qayıdış”

**Bir neçə gün qabaq Prezident Administrasiyasının və işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin sədrliyi ilə Qərargahın ikiillik fəaliyyətinin yekunlarına həsr olunan iclas keçirilib. İclasın gündəliyinə Qərargahın ötən ikiillik fəaliyyətinin qiymətləndirilməsi və qarşıda duran yeni vəzifələr, ”Böyük Qayıdış”a dair Dövlət Proqramının icrası ilə bağlı məsələlər salınıb.**

Habelə əhalinin Laçın şəhəri, Zabux və Sus kəndləri də daxil olmaqla işğaldan azad edilmiş ərazilərə tezliklə qayıdışı ilə bağlı dövlətimizin başçısının tapşırıqlarının icrasına dair son vəziyyət dəyərləndirilib. Samir Nuriyev Azərbaycan Respublikası Prezidentinin işğaldan azad edilmiş ərazilərə səfərləri zamanı, o cümlədən Laçın və Şuşa şəhərlərindəki son çıxışlarından irəli gələn tapşırıqlara toxunub. Qərargahın ötən ikiillik fəaliyyətinin nəticələrindən irəli gələrək, keyfiyyət, səmərəlilik, operativlik və dayanıqlılıq prinsiplərinin daim rəhbər tutulmasının, qurumlararası əlaqələndirmə və əməkdaşlığın daha da gücləndirilməsinin, hər bir layihə ilə bağlı hərtərəfli planlaşdırma, proqnozlaşdırma və risklərin qiymətləndirilməsi işinin aparılmasının, habelə görülən işlərlə bağlı səmərəli nəzarət və monitorinq mexanizmlərinin əhəmiyyəti vurğulanıb. Qərargahın rəhbəri ekosidə, urbisidə və etnosidə məruz qalmış ölkəmizin Prezidenti İlham Əliyevin rəhbərliyi ilə öz daxili imkanları hesabına postkonflikt quruculuğunun dünya üçün nümunə olan uğurlu bir modelini ortaya qoyduğunu qeyd edib. Sonra iclasda Əlaqələndirmə Qərargahının gündəliyində dayanan cari məsələlərlə bağlı məruzələr dinlənilib. ”Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə ”Böyük Qayıdış”a dair Birinci Dövlət Proqramı”nın icrası ilə bağlı qarşıda duran vəzifələr, Azərbaycan Respublikası Prezidentinin tapşırıqlarına uyğun olaraq Laçın şəhərinə, Zabux və Sus kəndlərinə əhalinin 2023-cü il ərzində qayıdışı istiqamətində görülən işlər barədə məlumat verilib. Bildirilib ki, dövlətimizin başçısının göstərişlərinə uyğun olaraq Laçın ərazisinə dərhal bir neçə işçi qrupu ezam edilib və ərazidə minadan təmizləmə, inventarlaşdırma, ilkin qiymətləndirmə və layihələndirmə işlərinin ardınca genişmiqyaslı yenidənqurma və bərpa işləri artıq başlanılıb. Həmçinin ”Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində 2022-2026-cı illərdə ”yaşıl enerji” zonasının yaradılması üzrə Tədbirlər Planı”nın icrası, ərazidə dayanıqlı enerji sisteminin qurulması, enerji və istilik təminatı məsələləri barədə məruzələr təqdim edilib. İclasın gündəliyinə uyğun olaraq, ərazilərdəki şəhərsalma məsələləri və planlaşdırma sənədlərinin hazırlanması ilə bağlı işlərin cari vəziyyəti müzakirə edilib, Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndələri müvafiq ərazilərdə həyata keçirilən layihələrin icrasının gedişatı barədə məlumat veriblər. Sonda Azərbaycan Respublikasının Prezidenti tərəfindən qarşıya qoyulmuş vəzifələrin icrası ilə bağlı zəruri tədbirlər müəyyən edilib və müvafiq tapşırıqlar verilib.

Bu arada qeyd olunub ki, ”Böyük Qayıdış” çərçivəsində Şuşa şəhərində 960 şagird yerlik 1 nömrəli tam orta məktəbin tikintisinə başlanılıb. Tikinti işlərinin 2023-cü ilin sentyabr ayında bitirilməsi nəzərdə tutulub. Hazırda tikinti işləri davam edir. Şuşa şəhərində Şuşa Realnı məktəbinin layihə-smeta sənədləri hazırlanır. Məktəb işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üzrə büdcə vəsaiti hesabına bərpa ediləcək. Həmçinin Füzuli şəhərində Füzuli Peşə liseyinin tikinti işlərinə növbəti ildə başlanılması planlaşdırılır. Hazırda layihə-smeta sənədləri hazırlanır. Bununla yanaşı, Füzuli şəhərində 960 şagird yerlik tam orta məktəbin tikintisinin bitirilməsi nəzərdə tutulub. Suqovuşan kəndində 144 şagird yerlik ümumtəhsil məktəbinin tikinti işləri artıq bitib və açılış üçün son tamamlanma işləri görülür. Kəlbəcər şəhərində 960 şagird yerlik və Zəngilan şəhərində 960 şagird yerlik tam orta məktəbin tikinti işlərinin növbəti ildə başlanılması planlaşdırılır. Laçın şəhərində 2 nömrəli tam orta məktəb binasının layihələndirilməsi, bərpası və əsaslı təmiri nəzərdə tutulub və tikinti işlərinə başlanılıb. Həmçinin Laçın rayonunun Zabux kəndində tam orta məktəb binasının əsaslı təmiri nəzərdə tutulub və tikinti işlərinə başlanılıb.



# "Bizim çoxlu pula, həm də çoxlu zamana ehtiyacımız var"

## Seymur Verdizadə: “Fikrimcə, qarabağlıların işğaldan azad olunmuş torpaqlarda tam məskunlaşması üçün ən azı 15-20 il vaxt lazımdır”

“Əsas odur ki, köç prosesinə start verilib”

**Cəbrayıldan olan tanınmış jurnalist, ”Yenisabah.az” saytının baş redaktoru Seymur Verdizadə ”Şərq”ə deyib ki, qarabağlıların ən böyük arzusu tezliklə öz ata-baba yurdlarına qayıtmaqdır. Baş redaktorun sözlərinə görə, torpaqlarımız işğaldan azad olunanda çox adam elə bildi ki, yaxın vaxtlarda doğma yurda dönə biləcək**: ”Reallıq isə bizim arzularımızın əleyhinə idi. Ermənilər 27 il ərzində Qarabağı viran qoymuşdu, şəhərlər, qəsəbələr, kəndlər xarabalığa çevrilmişdi, üstəlik, ərazi başdan-başa minalanmışdı. Minalanmış əraziləri təmizləmək, infrastruktur yaratmaq lazım idi. Bu isə zaman tələb edir. Bir qarabağlı kimi reallığı başa düşür və qəbul edirəm. Bilirəm ki, yaxın illərdə ata yurdumun çırağını yandırmaq mənə nəsib olmayacaq. Fikrimcə, qarabağlıların işğaldan azad olunmuş torpaqlarda tam məskunlaşması üçün ən azı 15-20 il vaxt lazımdır. Əsas odur ki, köç prosesinə start verilib, Zəngilanın bir kəndində həyat bərpa olunub. Yaxın 1-2 ildə Laçına və Şuşaya da əhalinin köçü gözlənilir. Təxmini hesablamalarıma görə, 5-6 ildən sonra Qarabağda on minlərlə insan yaşayacaq. Reallıqdan qaçmaq olmur. Reallıq isə odur ki, ermənilər bu cənnət bölgəmizə elə ağır zərbə vurublar ki, bizim həm çoxlu pula, həm də çoxlu zamana ehtiyacımız var. Səbrli olmaq və köç prosesinin sürətlənməsinə töhfə vermək lazımdır. Doğma yurda qayıtmaq arzusu ilə yaşayan hər kəs gec-tez öz istəyinə çatacaq. Hesab edirəm ki, ərazi minalardan tamamilə təmizlənəndən sonra yerli əhalinin quruculuq-abadlıq işlərinə cəlb edilməsinə ehtiyac olacaq. Məncə, təhlükəsizlik tədbirləri görüləndən sonra insan resursundan maksimum istifadə etmək lazımdır”.

**İsmayıl Qocayev**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# İmtahanın müddəti cəmi 15 dəqiqədir

## Mopedçilər üçün sürücülük vəsiqəsi imtahanları sadələşdirilib



**“Mopedçilər üçün sürücülük vəsiqəsi imtahanlarının məzmunu sadələşdirilib”. Bunu Milli Məclisin iclasında deputat Kamal Cəfərli deyib. Onun sözlərinə görə, Baş Dövlət Yol Polisi İdarəsində bu prosesin asan və şəffaf keçirilməsi üçün xüsusi komissiya yaradılıb:**

”Hazırda Baş Dövlət Yol Polisi İdarəsi gün ərzində rahatlıqla 400 nəfərin imtahan prosesindən keçməsini təmin edə bilir. İmtahanın müddəti isə cəmi 15 dəqiqədir”.

**Deputat Nigar Arpadarai qeyd edib ki, mopedçilərin qeydiyyatı çox önəmlidir:** ”Sərxoş şəkildə moped sürən sürücülər belə var. Arpadarai velosiped yolları çəkilməsini vacib sayıb: ”Biz bu gün velosipeddən istifadəni stimullaşdırmalıyıq. Bulvar ərazisindən ictimai nəqliyyat kimi velosipeddən istifadə etməliyik”.

**Deputat Şahin İsmayılov deyib ki, skuterlərin sürəti saatda 60 km çərçivəsindədir**: ”Bu gün şəhərdə skuterlərdən istifadə olunur. Skuter sürənlər də yol hərəkəti qaydalarına əməl etmirlər. Xaricdə bu məsələnin aradan qaldırılması üçün skuterlərə fərqlənmə nişanlarının taxılması məcburiyyəti gətirilib. Bizdə də bu təcrübədən istifadə olunsun. Azərbaycanda skuterlər artan templə yayılmağa başlayıb. Fərqlənmə nişanlarının qoyulması nəticəsində gələcəkdə qəza törədən zaman kimlərin günahkar olduğunu aydınlaşdırmaq olar”.

**İsmayıl**

# Regional terrorizmlə mübarizə prioritetdir

## Qafqazın lider dövləti ilə münasibətlər ABŞ-ı daha çox maraqlandırır

**“Azərbaycanın ABŞ ilə hərbi əməkdaşlıq üzrə fəaliyyəti 2007-ci ildən bəri daha intensiv şəkildə inkişaf etməkdədir”.**

Bunu ”Şərq”ə hərbi ekspert Ədalət Verdiyev general-polkovnik Kərim Vəliyevin ABŞ-yə səfərindən danışarkən bildirib. Onun qənaətincə, görüşlər hər iki ölkə arasında təhlükəsizlik sahəsində işlərin və Azərbaycanla ABŞ-nin NATO fəaliyyətlərinin dəstəklənməsini nəzərdə tutur: ”Azərbaycan 44 günlük müharibədə qələbə qazandıqdan sonra isə Qafqazın ən aparıcı lider dövləti kimi ABŞ üçün mühüm əhəmiyyət kəsb edir. Təhlükəsizliyin, regional inkişafın təmin olunmasında ABŞ ilə Azərbaycan münasibətləri vacibdir. Burada dəniz sərhədlərinin qorunmasında, regional terrorizmlə mübarizədə, müdafiə, hərbi-texniki sahələrdə iki ölkə arasında əməkdaşlığın gələcəkdə daha da inkişaf edəcəyini ehtimal edə bilərik”.



Qeyd edək ki, Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyevin rəhbərlik etdiyi nümayəndə heyəti ABŞ-də səfərdədir. Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.

**Sücayət Mehti**

# Müəllimləri, şagirdləri, hətta tələbələri gediş haqqından azad etmək olar

## İqtisadçı millət vəkilinin təklifini alqışladı və hesab edir ki, problemin həlli və icrası mümkündür

**Müəllimlər və şagirdlər üçün ictimai nəqliyyat gündə heç olmasa 2 dəfə pulsuz olmalıdır. ”Şərq” xəbər verir ki, bu təkliflə Milli Məclisin dünən keçirilən plenar iclasında deputat Naqif Həmzəyev çıxış edib. Millət vəkilinin təklifi, əlbəttə, müəllim və şagirdlərin ürəyincədir. Təkcə onların da deyil, valideynlərin də.**

Hətta iqtisadçıların da. Müəllim, şagird, valideynlərin təklifi alqışlaması başadüşüləndir. Müəllim təhsil verən, şagird təhsil alandır. Valideyn də təhsil haqqı ilə yanaşı, gediş haqqı da ödəyən. Bir halda ki, ölkədə təhsil icbaridir, uşaqların təhsil almalı olduğunu hər kəs təsdiqləyir, təhsildən yayınmaların qarşısının alınmasına çalışır, o zaman şagird məktəbə getmək üçün niyə gediş haqqı ödəməlidir? Bu, paradoksdur. Həm təhsilin icbari olduğunu deyirik, uşaqların təhsildən yayınmasının qarşısını almağın yollarını araşdırırıq, şagird niyə yol pulu ödəsin ki?! Təhsilə təşviq etməyin bir yolu da ödənişsiz gediş haqqı ola bilər. Şagirdi valideynindən yol pulu istəməkdən, valideyni də övladının cibinə yol pulu qoymaq qayğısından azad etməklə məktəbə rahat gediş-gəlişini təmin etmək, bununla da təhsilə əlçatanlığı daha da əlçatan edə bilərik. Şagird pul qazanmır, gəliri yoxdur. Onun gediş haqqını valideyni ödəyir. Valideyni də bu əlavə xərcdən azad etmək olar. Müəllimlərlə bağlı məsələyə bir qədər fərqli yanaşmaq mümkündür. Hər halda müəllim əməkhaqqı alır, az və çox. Məktəb müəllimin iş yeridir və o, təhsil verdiyi üçün əməkhaqqı ilə təmin edilir. Lakin təhsil verməyin mötəbər bir iş, uşaqların savadlanmasına, təhsilli olmasına yönələn zəruri iş olduğu nəzərə alınmaqla, əslində müəllimləri də gediş haqqı kimi əlavə xərclərdən azad etmək mümkündür.



“Bunu reallaşdırmaqla Azərbaycan hökuməti böyük rəğbət qazanacaq, belə bir sosial proqramı icra etdiyinə görə dünya dövlətləri sırasında öncül olacaq”

**Qeyd edək ki, iqtisadçılar da məsələyə iqtisadi kontekstdən baxaraq təklifi real dəyərləndirirlər. İqtisadçı Fuad İbrahimov ”Şərq”ə açıqlamasında qeyd edib ki, millət vəkilinin təklifi alqışlanmalıdır:**

- Bu, çox yaxşı təklifdir, qəbulu və icrası da mümkündür. Araşdırma aparıldıqda hökumətin izafi xərclərinin həddindən artıq çox olduğu görünür. O qədər izafi xərclər, böyük bir fərq yaratmayan, hansısa nəticəyə əsaslı təsir göstərməyən elə işlər, layihələr icra olunur ki, onları etməmək də olar. Hökumət bu xərcləri minimuma endirsə, müəllimləri də, şagirdləri, hətta tələbələri də gediş haqqı ödənişindən azad etmək mümkündür. Müəllimlərin əməkhaqqı yüksək deyil, şagirdin heç bir gəliri yoxdur, tələbə də nə qədər təqaüd alır ki, onu da yol puluna xərcləsin? Sosial rifah nöqteyi-nəzərindən də bu, gözəl təklifdir. Bunu reallaşdırmaqla Azərbaycan hökuməti böyük rəğbət qazanacaq, belə bir sosial proqramı icra etdiyinə görə dünya dövlətləri sırasında öncül olacaq. Hökumətin bu addımı istənilən halda alqışlanacaq. Buna bizim iqtisadi imkanlarımız yetir. Sadəcə, məsələnin həlli üçün daşıyıcı şirkətlərə dotasiya ayrılmalıdır. Müəllim, şagird və tələbələr üçün ictimai nəqliyyatdan istifadəni ödənişsiz etməklə, bu təbəqənin xərclərini azaltmış olacağıq. Yüksək əməkhaqqı almayan müəllimlərin də xərclərinə diferensial yanaşma olacaq.

**F.İbrahimov bildirdi ki, hər il dövlət büdcəsindən təhsil sahəsinə vəsait ayrılır. Ayrılmış vəsaitin bir hissəsi ”digər xərclər üçün” nəzərdə tutulur:**

- ”Digər xərclər”in təyinatı nədir? Vəsaitin bu hissəsi hara, nəyə xərclənir, bilinmir. Dövlət büdcəsindən təhsil sahəsinə ayrılmış puldan daşıyıcı şirkətlərə vəsait ayırmaq da olar. İldə bir gün Muzey günü elan edilir və həmin gün muzeylərə giriş ödənişsiz olur. Lakin şagirdlər üçün muzeylərə giriş daim ödənişsiz olmalıdır. Əgər biz uşaqlarımızın maariflənməsini, Azərbaycan incəsənəti, tarixi, ədəbiyyatı ilə yaxından, görüntülü tanış olmasını istəyiriksə, muzeylər, incəsənət mərkəzləri, teatr və kino zallarının qapılarını uşaqların üzünə ödənişsiz qaydada açmalıyıq. Bunun üçün də həmin ”digər xərclər” bölümünə aid vəsaitdən istifadə edilməlidir. Hər şey uşaqların təhsilinə, maariflənməsinə hesablanmalıdır. Hesab edirəm ki, millət vəkilinin təklifi hökumət tərəfindən dəyərləndirilməlidir, Təhsil Nazirliyi də konkret təkliflər irəli sürməlidir.

**Məlahət Rzayeva**

# Ərzaq bazarını dövlət tənzimləyəcək

## Budəfəki dəyişiklik istehlakçıların xeyrinədir

**Azərbaycanda ərzaq bazarı dövlət tərəfindən tənzimlənəcək.**

**Bununla bağlı "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" qanuna dəyişiklik edilir. Qanuna yeni "Ərzaq bazarının dövlət tənzimlənməsi" adlı maddə əlavə olunur.**




Yeni maddəyə əsasən, əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlı zəruri tədbirlərin hazırlanıb həyata keçirilməsi məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən hər il müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada ərzaq balansı tərtib olunur. Ərzaq balansının tərtibi üçün fermerlər və tədarükçülər tərəfindən kənd təsərrüfatı məhsullarının istehsalı, habelə həmin məhsulların yetişdirildiyi istixanalar, saxlanıldığı soyuducu anbarlar və taxıl elevatorları barədə aylıq məlumatlar növbəti ayın 10-dək müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemində müəyyən edilmiş formada həmin sistemə daxil edilməlidir.

Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada müəyyən edilmiş məhsullara dair məlumatları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) ərzaq balansının tərtibi ilə bağlı ildə bir dəfə verilən yazılı sorğusuna əsasən, ərzaq məhsullarının istehsalı, emalı, saxlanılması, idxalı, ixracı və satışı sahəsində fəaliyyət göstərən subyektlər 15 iş günü müddətində təqdim etməlidirlər.

Qanunun 31.2-ci və 31.3-cü maddələrində müəyyən edilmiş məlumatları təqdim etməyən şəxslər qanunla müəyyən edilmiş qaydada inzibati məsuliyyətə cəlb olunurlar.

*Ərzaq bazarının dövlət tənzimlənməsi iqtisadi yollarla həyata keçirilir və aşağıdakıları nəzərdə tutur:*

1. qida məhsulları istehsalının stimullaşdırılması, minimum keyfiyyət göstəricilərinin normallaşdırılması və sertifikatlaşdırılması;
2. qida zəncirində fəaliyyətin uçotu və nizamlanması;
3. ərzaq bazarında azad rəqabətin inkişaf etdirilməsi, haqsız rəqabətə yol verilməməsi və yerli istehsalçıların hüquq və mənafelərinin qorunması;
4. istehsalçıdan istehlakçılara çatdırılana qədər qida məhsullarının minimum keyfiyyətinə və təhlükəsizliyinə nəzarət;
5. ərzaq proqramlarının hazırlanmasının və həyata keçirilməsinin xarici sərmayələr də cəlb edilməklə maliyyələşdirilməsi.

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov "Şərq"ə açıqlamasında deyib ki, "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" qanun 1995-ci ildə qəbul olunub. Sonradan qanuna edilən əlavə və dəyişikliklərin heç biri istehlakçıların xeyrinə olmayıb. Bu barədə dövlət orqanlarına dəfələrlə müraciət edib qanunun dəyişdirilməsinin, ən azı müəyyən əlavə və dəyişikliklərin edilməsi zərurətini qeyd etmişik**: "Budəfəki dəyişiklik isə istehlakçıların xeyrinədir. Burada diqqət çəkən məsələ həm ərzaq təhlükəsizliyi, həm də ərzağın təhlükəsizliyi, yəni keyfiyyətinin yüksəldilməsi ilə bağlı müddəaların nəzərdə tutulmasıdır. Düşünürəm ki, artıq hökumət öz proqnozunu verə biləcək. Bilirsiniz ki, ərzaq təhlükəsizliyi müəyyən keyfiyyət standartları çərçivəsində əhalinin qida məhsullarına olan tələbatının fasiləsiz, uzunmüddətli və dayanıqlı şəkildə ödənilməsini təmin edən tədbirlər kompleksidir. Əhalinin təhlükəsiz və keyfiyyətli ərzaq məhsulları ilə təmin edilməsi, ərzaq təminatı sisteminin institusional inkişafının həyata keçirilməsi, sahibkarlıq mühitinin yaxşılaşdırılması və digər istiqamətlərdə real tədbirlər görülməlidir. Növbəti ildən hökumətin idxal siyasəti necə olacaq, rüsumlar necə tənzimlənəcək, o cümlədən istehsal olunan malların miqdarı, növü barədə əvvəlcədən konkret proqnozlar müyyən ediləcək".

**AİB sədrinin sözlərinə görə, ərzağın keyfiyyətinə də xüsusi diqqət ayrılması sevindirici haldır:** "İllərdir bu sahə nəzarətdən kənar qalıb. Qida Təhlükəsizliyi Agentliyi yaradılsa da, bu qurum ərzağın keyfiyyətinə yox, təhlükəsizliyinə nəzarət funksiyasını yerinə yetirir. Təhlükəsiz qida isə hələ keyfiyyətli qida demək deyil.

Qiymət artımı prosesində biznes qurumları vəziyyətdən sui-istifadə edərək qiyməti nisbətən bazara uyğun saxlamaq üçün keyfiyyəti aşağı salırlar. Ona görə də sözügedən dəyişiklikdə keyfiyyət məsələsinin önə çəkilməsini təqdirəlayiq hal hesab edirəm. Bu çox vacib amildir. Yaxşı olar ki, qida təhlükəsizliyi institutu və standartlaşdırma qurumları əlbir olaraq ərzağın keyfiyyətinə xüsusi diqqət etsinlər".

**Şəymən Bayramova**

# "Müsabiqələrin nəticələri məni qane etmir"

## Məhərrəm Zülfüqarlı: "Bizim kimi tanınan, təcrübəli təşkilatın layihəsi qəbul olunmur"

**Qrantlarla bağlı vahid informasiya sisteminin yaradılmasına dair layihə qəbul edilib. "Qrant haqqında" qanuna dəyişiklik layihəsi Milli Məclisin dünən keçirilən iclasında üçüncü oxunuşda müzakirəyə çıxarılıb.**



Təklif edilən dəyişikliyə əsasən, "Qrant haqqında" Azərbaycan Respublikası qanununda 3-cü maddənin yeni 2-2-ci hissəsində qrantların reyestrinin aparılması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən ediləcək. Qanun layihəsində təklif edilən dəyişikliklərin əsas məqsədinin qrantların alınmasında şəffaflığı təmin etmək, bu sahədə müasir tələblərə cavab verən sistem formalaşdırmaq, qrantlar haqqında zəruri məlumatları əhatə edən vahid informasiya sistemi yaratmaq, nəzərdə tutulan reyestrin eyni forma, metod və prinsiplər əsasında aparılmasını təmin etmək olduğu qeyd olunub. Dəyişiklik layihəsi üçüncü oxunuşda qəbul edilib.

**Azərbaycan Vətəndaş Cəmiyyətinə yardım Assosiasiyası Seçki Qərargahının rəhbəri Məhərrəm Zülfüqarlı "Şərq"ə açıqlamasında qeyd edib ki, qeyri-hökumət sektorunda uzun illər çalışmış şəxs kimi dəyişikliklərin formal deyil, əsaslı olmasını arzulayır:**

- Bilirsiniz ki, uzun illər Milli QHT Forumu İdarə Heyətinin üzvü olmuşam. Forum QHT-yə Dövlət Dəstəyi Agentlik olanadək hər il 200-dən artıq qeyri-hökumət təşkilatına qrant ayrılırdı. Düzdür, layihələrin icrası üçün ayrılan məbləğlər böyük olmurdu, əksər hallarda təxminən 4-7 min manat civarında. Lakin yenə də ortaya konkret layihələr qoyulurdu və görünən bir iş olurdu. Bu təşkilat yenilənəndən sonra isə qrant alan təşkilatların sayı azalıb, amma məbləğlər artıb. Ortaya konkret iş qoyanlar da azdır. Təmsil olunduğum AVCİYA 44 günlük müharibə, Zəfər günü, Şuşa haqqında kitab nəşrinə maliyyə ayrılması üçün müraciət etdi, müraciətimiz qəbul olunmadı. Bununla belə biz Şuşa haqqında 4 kitabı öz maliyyə resurslarımız hesabına nəşr etdik. Lakin sonra öyrəndik ki, kitab nəşri ilə bağlı layihənin qalibi tanımadığımız bir təşkilat elan edilib. Bizim kimi tanınan, böyük təcrübəyə malik təşkilatın layihəsi qəbul olunmur, bizə dəstək verilmir, amma tanınmayan, fəaliyyəti naməlum təşkilat qrant müsabiqəsinin qalibi elan edilir. Ona görə də hazırkı layihə müsabiqələrinin nəticələri məni qane etmir, Agentliyin işindən də narazıyam. "Qanuna dəyişiklik nə vəd edir" soruşursunuz, məlumata baxıldıqda hər şey əladır, müsbətdir. Amma bu, fəaliyyətdə də özünü göstərəcəkmi, gələcəkdə görəcəyik. Əsas forma deyil, məzmun dəyişikliyidir.

**Məlahət Rzayeva**



# Beşdən çox uşağı olan çox azdır

## Heç olmasa, üç və daha çox uşaqlı ailələrə xüsusi yardım göstərilməlidir

**"Ölkədə beşdən çox uşağı olan ailələrə müəyyən yardım göstərilir. Məhz beşdən çox uşağı təkbaşına böyüdən ataların sayı çox azdır. Belə qanun layihəsinin qəbul edilməsinə dəyməz. Əvəzinə uşaqpulunu bərpa etsinlər".**

Bunu "Şərq"ə açıqlamasında Sağlam Cəmiyyət Hərəkatının rəhbəri, sosioloq Elçin Bayramlı deyib.

O bildirib ki, heç olmasa, üç və daha çox uşaqlı ailələrə xüsusi yardım göstərilməlidir: "Əksər ölkədə olduğu kimi bizdə də uşaqpulu ödənməlidir. Ən azından aztəminatlı ailələrə yardım ödəsinlər. İndiki maaş sistemi ilə bir və ya iki uşaqdan artıq ailə saxlamaq çətindir.

Bu vəziyyət demoqrafik problemlərə yol açır. Bir millətin, xalqın yaşaması üçün ailədə uşaq sayı üç və daha çox olmalıdır. Əgər bir və ya iki uşaq varsa, 30-40 ildən sonra xalq yoxa çıxacaq. Sözügedən istiqamətdə yeni qanun layihələri təklif edilməlidir".

*Qeyd edək ki, beşdən çox uşağı təkbaşına böyüdən atalara sosial müavinət verilməsi ilə bağlı qanunvericiliyə dəyişikliklərin edilməsi təklif olunur. Konstitusiya Məhkəməsi Milli Məclisə müvafiq tövsiyə verib.*

**Aygün Tahir**

# 20 ilədək həbs nəzərdə tutulur

## 14 yaşına çatmayanlara qarşı seksual zorakılıq edənləri ağır cəza gözləyir

**14 yaşına çatmayan şəxslərə qarşı zorlama, yəni zərərçəkmiş şəxsə və ya başqa şəxslərə qarşı zor tətbiq etməklə və ya belə zor tətbiq etmə hədəsi ilə və ya zərərçəkmiş şəxsin köməksiz vəziyyətindən istifadə etməklə onunla cinsi əlaqədə olanlar 20 ilədək azadlıqdan məhrum ediləcək.**

Bu, Milli Məclisin bu gün keçirilən iclasında müzakirə edilən Cinayət Məcəlləsinə təklif edilən dəyişiklikdə əksini tapıb.

Layihəyə əsasən, zorlama aşkar surətdə on dörd yaşına çatmayan şəxs barəsində törədildikdə üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə on beş ildən iyirmi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılacaq.

*Qeyd edək ki, qüvvədə olan Məcəlləyə əsasən, həmin cinayəti törətmiş təqsirkar şəxs üçün aşkar surətdə on dörd yaşına çatmayan şəxs barəsində törədildikdə on ildən on beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.*

*Qanun layihəsi müzakirələrdən sonra birinci oxunuşda qəbul edilib.*


# "Nar" NETTY 2022 milli internet mükafatının əsas tərəfdaşıdır

**İnformasiya və kommunikasiya texnologiyalarının inkişafına töhfə vermək məqsədilə mobil operator "Nar" bu il də NETTY milli internet mükafatına dəstək olur. Mükafatın münsifləri hər il**

Azərbaycanın ən yaxşı İT layihələrini, mühüm veb-resursları və informasiya texnologiyaları sahəsində peşəkarları müəyyən edib mükafatlandırır.

Müsabiqədən iştirak etmək istəyənlər hər birində 3 alt kateqoriya olan 7 nominasiya üzrə ərizələrini təqdim edə bilərlər. Bu ilki nominasiyalar "Dövlət və cəmiyyət", "İqtisadiyyat və

Biznes", "Maliyyə və banklar", "Elm, Təhsil və İnnovasiyalar", "Səhiyyə, İdman və Turizm", "İnformasiya və Xəbərlər" və "Mədəniyyət, İncəsənət və Yaradıcılıq" olaraq müəyyən edilib.

İştirak üçün müraciət netty.az saytında, onlayn qaydada qeydə alınır. İştirak ərizələrinin qəbulu üçün son gün 30 noyabr tarixidir.

*Qeyd edək ki, müsabiqə "Nar"-ın əsas tərəfdaşlığı ilə keçirilir. "Nar" özünün çoxşaxəli korporativ sosial məsuliyyət (KSM) strategiyası çərçivəsində Azərbaycanda yerli İT sahəsinin inkişafına və müxtəlif yenilikçi layihələrin tətbiqinə dəstək olur.*


# Sayı 23-ə çatıb

## Daha 6 rayonda "Vətən Bağı" yaradılıb






**2021-ci ildən etibarən "Qırmızı Ürəklər" ("Red Hearts") Fondu birinci və ikinci Qarabağ müharibəsi zamanı şəhid olan qəhrəman oğullarımızın əziz xatirəsini əbədiləşdirmək məqsədilə ölkənin bir sıra rayonlarında "Vətən Bağı" layihəsini həyata keçirməyə başlayıb. Hər rayonda, həmin rayonun şəhidlik zirvəsinə ucalan igidlərin sayına uyğun ağac əkilir. Layihə həmçinin Azərbaycanın ekoloji mühitinə töhfə vermək məqsədini də daşıyır.**

Bu dəfə ağacəkmə layihəsi PAŞA Holding-in dəstəyi ilə Masallı, Oğuz, Naftalan, Ucar, Göyçay və Goranboyda həyata keçirildi. Masallıda 250, Oğuzda 150, Naftalanda 50, Ucarda 200, Göyçayda 280, Goranboyda isə 350 ədəd olmaqla ümumilikdə 1280 ədəd sərv, şam və tuya ağacı əkilib. Ağacəkmə aksiyasında şəhid ailələri, rayon və şəhər ictimaiyyətinin nümayəndələri, qazilər, PAŞA Holding-in, Kapital Bank-ın və "Qırmızı Ürəklər" Fondunun əməkdaşları iştirak etdi. Aksiya Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi və yerli İcra Hakimiyyəti orqanının dəstəyi ilə keçirilib.

"Vətən Bağı" əsasən insanların sıx olduğu yerlərdə, parklarda və şəhərin mərkəzlərində təşkil olunur. Bununla da ölkə ərazisində "Vətən Bağ"larının sayı 23-ə çatıb və ağacəkmə mövsümü zamanı davam etdiriləcək. Əkilən ağaclara qulluq olunması, suvarlanması və digər lazımi tədbirlər yerli İcra Hakimiyyəti orqanları və "Qırmızı Ürəklər" Fondu tərəfindən həyata keçirilir.

"Qırmızı Ürəklər" Fondu 2019-cu ildə Kapital Bank-ın könüllü əməkdaşlarının təşəbbüsü ilə yaradılıb. Hazırda Fond kimi fəaliyyətini davam edən təşkilat, əsasən uşaq evlərinə, sığınacaqlara və digər ehtiyacı olanlara yardımlar edir. https://redhearts.az saytına daxil olmaqla fondun fəaliyyəti, gördüyü xeyirxah işlər, gələcək planları və digər maraqlı məlumatları əldə etmək, həmçinin "Cəmiyyət" bölməsinə daxil olub ianələr etmək olar.


Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC
1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330
Tirajı: 1550 Sifariş: 3355



# Bazarda pərişan oldu

## Qadının 220 min lirə dəyərində qızılı və 165 min lirə nağd pulu oğurlanıb

**Adana şəhərində bazarda alış-verişə gedən qadın içərisində təxminən 220 min lirə qızıl və 165 min lirə pulu olan çantasının oğurlandığından şikayətlənib.**

”Şərq” türk mediasına istinadən xəbər verir ki, iddiaya görə, Seyhan Aral oğruların evə girəcəyindən qorxaraq qızılları və yığdığı pulları çantasına qoyaraq bazara gedib. Məhəllə bazarında alış-veriş edərkən bir şübhəli qadın onun pul kisəsini oğurlayaraq qaçıb.

Xəbərdən sonra hadisə yerinə gələn polis qrupları şübhəlini tutmaq üçün işlərə başlayıb.

Qadın oğurlanan pulu ev almaq üçün yığdığını bildirib.

Həyat yoldaşı ilə birlikdə polis bölməsinə gedərək şikayət edən Enes Aral, ”Son vaxtlar məhəlləmizdə oğurluq hadisələri artdığı üçün həyat yoldaşım yığdığımız pul və qızılları götürməyin daha təhlükəsiz olacağını düşündü”, - deyə bildirib.

**Turan**

# Zəlzələdən sonra yanan suyu görənlər heyrətlənir

## Qaynayan və köpüklənən su quyusunun niyə yandığı hələlik məlum deyil



**Türkiyənin Düzce bölgəsinin Gölyaka rayonunda noyabrın 23-də baş verən 5,9 bal gücündə zəlzələdən sonra artezian su quyusu yanmağa başlayıb.**

”Şərq” türk mediasına istinadən xəbər verir ki, zəlzələdən sonra qaynayan və köpüklənən su quyusunun niyə yandığı hələlik məlum deyil.

Belə bir hadisə ilə ilk dəfə qarşılaşdığını deyən yerli sakin Cemalettin Civil 105 metr dərinlikdən çıxan suyun alışqan vurulduğu zaman yandığını bildirib: ”Bu su 1999-cu il zəlzələsindən sonra çıxarılıb. Əvvəllər yaxınlıqda artezian var idi, amma 1999-cu il zəlzələsindən sonra suyu bitdi. Sonradan bu ərazi qazıldı və bu su çıxmağa başladı.

Bu qədər köpüklənmə və artım zəlzələdən sonra oldu, əvvəllər də yox idi. Normal deyil, normal görünmür. Biz daha əvvəl belə bir vəziyyət görməmişdik”.

**Turan**

# Tuba Büyüküstün və Engin Akyürek sevgilidir?



**”Kara Para Aşk” serialı ilə pərəstişkarlarının qəlbində taxt quran Tuba Büyüküstün və ”Səfirin qızı”nda kamera qarşısına çıxan Engin Akyürek haqqında iddia irəli sürülüb.**

“Şərq” türk mediasına istinadən xəbər verir ki, məşhur aktyorların Parisdə birlikdə vaxt keçirdikləri iddia olunur. İllər əvvəl eşq yaşadığı iddia edilən məşhurların Paris tətilində dostluq qrupundan ayrı gəzməsi hər kəsi çaş-baş salıb. Onların sevgili olduğu bildirilib.

**Turan**

# Cennifer Lopezdən etiraf

## “Ayrılanda öləcəyimi düşünürdüm”



**Sosial media hesablarını bağlayan və İnstaqramdakı bütün paylaşımlarını silən Cennifer Lopez karyerası və şəxsi həyatı üçün çox şey ifadə edən albomla dönəcəyini açıqlayıb.**

Yeni albomu haqqında danışan 53 yaşlı Lopez, Zeyn Lou ilə müsahibəsində 17 il əvvəl Afflekdən ayrılmağın ona necə təsir etdiyi barədə bəzi etiraflar edib.

“Şərq” xarici mediaya istinadən xəbər verir ki, müğənni 2002-ci ildə çıxardığı və karyerasının dönüş nöqtələrindən olan ”This Is Me... After” albomu haqqında bunları söyləyib:

”Həyatımın eşqi ilə birlikdə olduğum dövrü əks etdirən bir albom idi. Yazdığımız hər bir mahnı çox özəl idi”.

Afflekin o albomdakı bütün mahnıları və sözləri əzbərlədiyini paylaşan ulduz ”Mənim ən böyük fanatım idim”, - deyə bildirib.

Afflekdən ayrıldıqdan sonra bu albomdan heç bir mahnı oxumaq belə istəmədiyini söyləyən Lopez, ayrılığın çox ağrılı keçdiyini deyib.

“20 il əvvəl o toyu ləğv etdik və həyatımın ən böyük ürək ağrısını yaşadım. Açığı, öləcəyimi düşünürdüm”.

Həmin albomdan sonra heç vaxt belə mahnılar ifa edə bilməyəcəyini qeyd edən ulduz, ”20 ildən sonra xoşbəxt sonluğa çatdıq”, - deyə bildirir.

**Turan**






# 51 il əvvəl qaçırılan uşaq ailəsinə qovuşdu

## Melissa doğmalarından cəmi 10 dəqiqə məsafədə böyüyüb

**ABŞ-də Melissa Hayqsmit adlı qızcığaz hələ 21 aylıq olarkən bir baxıcı tərəfindən qaçırılıb. Doğmalarının evindən cəmi 10 dəqiqəlik məsafədə böyüyən qadın 51 ildən sonra ailəsinə qovuşub. Ata Cef dualarının qəbul olunduğunu söyləyib.**

”Şərq” xarici mediaya istinadən xəbər verir ki, ailəsi kiçik qızları Melissanın Texasdakı evlərindən özünü uşaq baxıcısı kimi təqdim edən bir qadın tərəfindən qaçırıldığını iddia edərək polisə müraciət etmişdi.

1971-ci il avqustun 23-də baş verən hadisənin üstü uzun illər açılmayıb. Hazırda 53 yaşı olan qadın uşaqlığının təzyiq altında keçdiyini bildirib. Çölə çıxa bilməyən qadın bir müddət sonra evdən qaçıb.

İllərdir onu qaçıran və anası olduğunu iddia edən şəxsi görməyi dayandıran Melissa bunun üçün ailəsini DNT testindən keçirib. Uşaqlığını izah edən Melissa, ”Orada olanda uşaqlığım bədbəxtlik içində keçdi. Çölə çıxıb oynamağıma icazə verilmədi və məni gizli saxladılar. Əgər istəmirdisə, niyə mənə sahib idi?”. Öz-özümə sual edərdim”, - deyə bildirib.

Melissa Hayqsmitin öz ailəsindən cəmi 10 dəqiqə məsafədə böyüdüyü də məlum olub.

Melissanın əsl anası Alta Apantenco balaca qızlarını axtarmaqdan heç vaxt əl çəkmədiklərini söyləyib. Hazırda 73 yaşında olan ana 51 illik axtarışların ümidverici olduğunu söyləyib.

DNT uyğunluğu Melissanın 48 yaşlı bacısı Rebekka olduğunu təsdiqlədikdən sonra, qadını feysbuk vasitəsilə tapıblar. Melissanı qaçıran qadın cinayət məsuliyyətinə cəlb edilməyəcək. Texas qanununda 48 illik məhdudiyyət müddəti var.

Ata Cef isə ”Bütün olanları Allaha buraxırıq. Biz inanclı insanlarıq və dualarımız sayəsində bunun gerçəkləşdiyinə inanırıq. Allah heyrətamizdir, istədiyi hər şeyi edə bilər”, - deyə bildirib.

**Turan**





# Quyruq yağı əvəzsizdir

## Deyilənlərin əksinə olaraq, əslində bu yağlar damarların tıxanıqlığını açır

**“D vitamini ən çox quyruq yağındadır. Qoyunlar günəş işığını demək olar ki, öz bədənlərində depolayır. Bu gün D vitamini kimi qəbul etdiyiniz dərmanların xammalı qoyun tükündən alınır.**

Bəzən quyruq yağının damarları tıxadığını deyən dırnaqarası ”mütəxəssislər” də peyda olur. Ancaq deyilənlərin tam əksi olaraq, quyruq yağı damarları tıxamır və pis xolesterini yüksəltmir, əksinə, damarları açıb tıxanıqlığı aradan qaldırır”. Bu fikirlər qida məsələləri üzrə mütəxəssis Ağa Salamova aiddir. Mütəxəssis bu barədə sosial şəbəkədə paylaşım edərək, orqanimz üçün vacib D vitamininin hansı qidalarda cəmləndiyini açıqlayıb. ”Şərq” mütəxəssisin rəyini təqdim edir:

- D vitamini sağlam sümüklərin quruluşu və qorunması üçün vacib bir mənbədir. Bundan əlavə, sümük və dişlərimiz üçün də lazım olan kalsium və fosforun mənimsənilməsinə kömək edir. Aparılan araşdırmalar D vitamininin immunitet, xərçəng, ürək-damar xəstəlikləri və diabetə faydalarını sübut edir. Buna görə də vücudunuzun sağlam qalmasına yardımçı olmaq üçün bütün il boyu D vitamini ilə zəngin qidaların qəbulu vacibdir. Ən çox D vitamini deposu olan qidalar bunlardır.

**1. Quyruq yağı**

Quyruq yağını güvəndiyiniz qəssabdan alıb 1 sm aralıqlarla doğrayıb orta atəşdə bişirərək, əridin, sonra rahatlıqla istifadə edin, yeməkləri bu yağla bişirin. Qoxusu sizi narahat edirsə, onu aradan qaldırmaq üçün isə əridən zaman quyruq yağına hil əlavə edə bilərsiniz.

**2. Yağlı balıqlar**

D vitamini ilə zəngin qidalar arasında yağlı balıqlar çox vaxt siyahıya başçılıq edir. D vitamini yağda həll olunan vitamin olduğundan yağlı balıq seçimi ən unikal seçimdir. Vitamin D soyuq sularda yaşayan (süni olmayan) qızılbalıqlarda da daha çox olur.

**3. Yumurta sarısı**

Yalnız yumurtanın ağını yeyirsinizsə, onun bir çox faydasını ala bilməyəcəksiniz. Zülalın çoxu yumurtanın ağında olur, lakin sağlam yağlar, vitaminlər və minerallar (o cümlədən D vitamini) daha çox sarısında olur. Günəş işığında açıq havada gəzib eşələnən toyuqların yumurtası, broyler toyuqlardan daha çox D vitamini ehtiva edir.

**4. Göbələk**

Göbələklər D vitamininin yeganə təbii bitki mənbəyidir. İnsanlar kimi, göbələklər də günəşə məruz qaldıqda vitamin sintez edə bilirlər. Göbələklərdəki vitamin D miqdarı həm məhsuldan əvvəl, həm də məhsul yığımından sonra ultrabənövşəyi şüaların təsiri ilə artır. Göbələklər vitaminin (Vitamin D2) bir qədər fərqli variantını istehsal edir, lakin bu, orqanizm üçün faydalıdır.

**5. Mal ciyəri**

Mal-qara ciyərinin faydaları saysız-hesabsızdır. Ən böyük faydalarından biri D vitamininin əvəzsiz mənbəyi olmasıdır. 85 qram qaraciyərdə 42 IU D vitamini var ki, bu da gündəlik ehtiyacınızın dörddə birini təşkil edir. Həm də dəmir və B12 baxımından olduqca zəngindir. Bu səbəbdən mal ciyəri xüsusilə qış aylarında süfrələrimizdən qaçırmamalı olduğumuz qidalardan biridir.

***Mütəxəssis damar tıxanıqlığına səbəb olan qidaları da sadalayıb:***

- Bəzən yanlış olaraq iç yağının da damar tıxanıqlığı yaratdığını iddia edirlər. Lakin bu, doğru deyil. İç yağı damar tıxanıqlığı yaratmır. Tıxanıqlığı trigliserid yaradır ki, bu da şəkərdə, emal olunmuş unda, trans-yağlarda, rəngli və qazlı içkilərdə və s. mövcuddur. Amma xeyirli qidaları deyil, nə ziyanlıdı onu reklam edirlər. Qoyun quyruğunda LDL - yəni pis xolesterin deyilən bir şey yoxdur, əksinə, orqanizm üçün faydalı və lazımlı olan təbii xolesterin var. Ürəklə alın, yeyin, yeməklərinizi də bu yağda bişirin. Heyvan mənşəli qidalar quyruq və kərə yağında bişirilməlidir. Tərəvəzlər isə zeytun yağında. Xəstələr isə həkim məsləhəti altında məhdud rasionda istehlak etməlidirlər.

**Məlahət Rzayeva**

# Memarlar küləyə davamlı kotteclər dizayn ediblər



**”Croxatto və Opazo Architects” arxitektura bürosunun layihəsi ilə Çilidə Sakit okeana baxan iki minimalist ev (kottec) dizayn edilib.**

Azərtac xarici saytlara istinadla xəbər verir ki, kotteclərin biri dəniz səviyyəsindən 60 metr, digəri isə 80 metr hündürlükdə təpənin yamacında yerləşir. Sahələri cəmi 20 və 25 kvadratmetr olan mini evlər mətbəx, qonaq otağı, yemək otağı və yataq otağından ibarətdir.

Evlərin pəncərələri və terrasları elə yerləşdirilib ki, sakinlərə heyrətamiz mənzərələr təqdim edilsin və onları bu ərazi üçün xarakterik olan güclü küləklərdən qorusun.

Layihənin müəllifləri regionun sərt təbii şəraitinə optimal şəkildə uyğun olan materialları seçiblər. Fasadlar üçün neftlə işlənmiş şam ağacından və interyer üçün şam taxtalarından istifadə olunub.

# 14 yaşlı qız saçlarını yeyib

## Bağırsaqları türklə tıxanıb



**Çinin Şaansi əyalətinin Sian şəhərindən olan 14 yaşlı qız saçlarını qopararaq yeyib.**

Milli.Az bildirir ki, bu barədə ”South China Morning Post” məlumat yayıb.

Qastroenteroloq Şi Hayın sözlərinə görə, qız yeməyi dayandırdıqdan sonra müayinə üçün gətirilib. ”Sonra biz aşkar etdik ki, onun mədəsi o qədər türklə doludur ki, yeməyə yer qalmamışdı. Bağırsaqları da tüklə tıxanıb”, - həkim deyib. Cərrahlar iki saatlıq əməliyyat keçirərək, yeniyetmənin mədə və bağırsaqlarından üç kiloqramlıq saçları çıxarıblar. Çıxarılanın çəkisini kərpiclə müqayisə ediblər.

Hay, yeniyetmənin vəziyyətinin yeyilməz əşyaların yeyilməsini ehtiva edən yemək pozğunluğu olan pikasizm ilə əlaqəli ola biləcəyini iddia edib. ”O, davranışlarına kifayət qədər diqqət yetirməyən nənəsi və babası ilə yaşayır. Ola bilsin ki, o, uzun illər psixoloji problemlərdən əziyyət çəkirdi”, - həkim deyib.